## Almaniya, İtaliya və Fransa liderləri birlikdə Ukraynaya səfər edəcək



**Almaniya kansleri Olaf Şolts, İtaliyanın Baş naziri Mario Draqi və Fransa Prezidenti Emmanuel Makron iyunun 16-da birlikdə Ukrayna paytaxtı Kiyevə səfər edəcək.**

"Report" xəbər verir ki, bunu "La Stampa" qəzeti yazıb.

Avropa İttifaqına üzv olan 3 ölkənin lideri Ukraynadakı vəziyyətlə yerində tanış olacaq, Ukrayna Prezidenti Volodimir Zelenski ilə görüşəcəklər.

## Zelenskinin ofisi NATO-dan istədikləri silahların siyahısını açıqlayıb



**Ukrayna NATO-dan daha çox hərbi yardım istəyəcək.**

APA xəbər verir ki, bu barədə Ukrayna Prezident Ofisinin rəhbərinin müşaviri Mixail Podolyak "Twitter"də bildirib. "Müharibəni bitirmək üçün bizə ağır silahlar: 155 mm çaplı 1000 haubitsa; 300 MLRS; 500 tank; 2000 zirehli maşın; 1000 dron lazımdır. İyunun 15-də Brüsseldə Müdafiə Nazirlərinin Təmas Qrupunun iclası keçiriləcək. Biz qərar gözləyirik", Mixail Podolyak bildirib.


№ 103 (5625), 2022-ci il

Qiyməti 40 qəpik

# ŞƏRQ

Günəş Şərqdən doğur!

www.sherg.az 14 iyun 2022-ci il (çərşənbə axşamı)




## Azərbaycan millisi Belarusa qalib gəldi

### Mahir Emreli və Ramil Şeydayev fərqləniblər

**Futbol üzrə Azərbaycan millisi UEFA Millətlər Liqasında ilk qələbəsini qazanıb.**

Dünən baş məşqçi Canni De Byazinin yetirmələri Bakıda Belarus seçməsini qəbul edib.

"Dalğa Arena"da oynanılan qarşılaşmanı yunanıstanlı Anastasios Papapetrunun rəhbərlik etdiyi hakimlər briqadası idarə edib.

Qarşılıqlı hücumlar şəraitində keçən ilk hissədə hesab açılmayıb. İkinci hissəyə daha fəal başlayan millimiz matçın 76-cı dəqiqəsində istəyinə çatıb. Millimizin üzvü Mahir Emreli fərqlənərək matçda hesabı açıb. Matça əlavə olunmuş vaxtda Ramil Şeydayev rəqib qapısına yol taparaq hesab arasındakı fərqi artırıb. Bu, oyunda vurulan sonuncu qol olub.

Beləliklə, Azərbaycan millisi 2:0 hesablı qələbə qazanıb.



## ABŞ dövlət katibinin müavini Azərbaycana gəlib

**ABŞ dövlət katibinin Demokratiya, İnsan Haqları və Əmək Məsələləri üzrə müavini Kara Makdonald Azərbaycana gəlib.**

APA xəbər verir ki bu barədə ABŞ-ın Azərbaycandakı Səfirliyi məlumat yayıb. Bildirilib ki, ABŞ dövlət katibinin Demokratiya, İnsan Haqları və Əmək Məsələləri üzrə müavini Kara Makdonald iyun ayının 13-15 Azərbaycanda səfərdə olacaq.

"Səfər zamanı o, hökumət rəsmiləri, demokratiya və insan haqları sahəsində çalışan fəallar, müstəqil media və siyasi partiyaların nümayəndələri ilə görüşlər keçirəcək. dövlət katibinin müavini Makdonald Demokratiya, İnsan Haqqları və Əmək Məsələləri üzrə Bürosunun Avropa, Cənub və Mərkəzi Asiya üzrə fəaliyyətinə habelə çoxtərəfli və qlobal münasibətlər sahəsində çalışan heyyətə rəhbərlik edir. Demokratiya, İnsan Haqqları və Əmək Məsələləri üzrə Büro qanun aliliyi, insan haqları və əsas azadlıqlardada daxil olmaqla universal dəyərləri dəstəkləyir. Sözügedən dəyərlər demokratiyaya habelə güclü, sabit, firavan, və suveren dövlətlərin inkişafına təkan verir", Səfirliyin məlumatında qeyd olunub.

## Abdulla Şahid: "BMT uğursuzluğa düçar olmuş təşkilat deyil"



**"BMT uğursuzluğa düçar olmuş təşkilat deyil". APA xəbər verir ki, bunu BMT Baş Assambleyasının Prezidenti Abdulla Şahid ADA Universitetində müzakirələr zamanı deyib.**

"Məndən tez-tez soruşurlar ki, BMT uğursuzluğa düçar olmuş bir institutdurmu? Mən bu fikirlə razılaşmıram. Bu platforma bizim qlobal səviyyədə malik olduğumuz bir imkandır. Bu platforma bizə imkan verir ki, ənənəvi və vacib olan dialoq aparaq. Əyləşək, müzakirə edək və qərar verək" - deyə o qeyd edib.

# Yolumuz birdir

## Şuşa Bəyannaməsi Azərbaycanla Türkiyənin birliyini bir daha dünyaya göstərdi



**Azərbaycan Prezidenti İlham Əliyevlə Türkiyə rəhbəri Rəcəb Tayyib Ərdoğan arasında Şuşa Bəyannaməsinin imzalamasının birinci ildönümüdür.**

Ötən ilin iyunun 15-də liderlərin Şuşa şəhərində imzaladığı müttəfiqlik sənədi iki ölkə arasında hərbi-siyasi və təhlükəsizlik məsələlərinin müştərək strateji maraqlardan məcmusu sayılır. Sənədin nüvəsini təhlükəsizlik və hərbi-siyasi əməkdaşlığın dərinləşdirilməsi, təhdidlərə qarşı birgə mübarizə əzmi təşkil etdiyindən elə bu istiqamətlər üzrə daha çox inkişaf nəzərə çarpır. Bir illik periodda, Azərbaycanla Türkiyə strateji müttəfiqlik maraqlarını ən üst səviyyəyə qaldırmaq üçün bir-birinə dəstək göstərdilər. Şuşa Bəyannaməsindən sonra Azərbaycan Ordusunun Türkiyə modelinə sürətli keçidi mərhələsinə qədəm qoyuldu. Komando hərbi birlikləri yaradıldı və ordunun strukturunda da Quru Qoşunları komandanı vəzifəsi təsis edildi. Bölgə xalqlarının həyatında öz siyasi, tarixi, strateji əhəmiyyətinə görə Şuşa bəyannaməsi yalnız 100 il əvvəl, 13 oktyabr 1921-ci ildə 5 dövlət arasında bağlanmış Qars müqaviləsi ilə müqayisə edilə bilər.

(səh.3)

# "Görünmədən görmək, ölmədən dönmək"

## Düşməni susdurmağa bir atəş bəs edir



**2022-ci ilin döyüş hazırlığı planına uyğun olaraq Azərbaycan Ordusunda snayperlərin peşəkarlığının artırılması və döyüş vərdişlərinin təkmilləşdirilməsi məqsədilə təlim keçirilir.**

Müdafiə Nazirliyinin məlumatına görə, təlim zamanı snayperlər gecə və gündüz vaxtı atəş mövqeyinin seçilməsi, fərdi və qrup şəklində müxtəlif məsafələrdə yerləşən hədəflərin aşkar olunaraq sərrast atəşlə məhv edilməsi, eləcə də digər mövzular üzrə qarşıya qoyulan tapşırıqları icra edirlər. Məlumat üçün bildirək ki, snayperlər xüsusi adamlardır.

(səh.4)



## Kremlin Zəngəzurla bağlı fərqli və ziyanlı planı var

### Rusiyanın mövqeyi və davranışları rəsmi Bakını Laçın dəhlizinə nəzarəti öz əlinə almaq məcburiyyətində qoya bilər

**"Rusiyanın Zəngəzur dəhlizi ilə bağlı tamamilə fərqli və ziyanlı maraqları var".**

Bu barədə "Şərq"ə açıqlamasında politoloq Elçin Xalidbəyli deyib. Analitik bildirib ki, Rusiya Zəngəzur dəhlizinin açılmasında birbaşa maraqlıdır.

(səh.5)

## Yoluxan və vəfat edən olmayıb

### 3 nəfər müalicə olunaraq sağalıb




**Azərbaycan Respublikasında koronavirus (COVID-19) infeksiyasına yeni yoluxma faktı qeydə alınmayıb, 3 nəfər müalicə olunaraq sağalıb.**

Nazirlər Kabineti yanında Operativ Qərargahdan "Şərq"ə verilən məlumata görə, COVID-19 üçün götürülən analiz nümunələri müsbət çıxmış şəxslərdən vəfat edən olmayıb.

Azərbaycanda indiyədək ümumilikdə 792 884 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib. Onlardan 783 094 nəfər müalicə olunaraq sağalıb, 9 715 nəfər vəfat edib, aktiv xəstə sayı 75 nəfərdir.

Ölkədə son sutka ərzində 1 150, hazırkı dövrədək isə 6 924 498 test aparılıb.

## Salyanda güclü külək bir sıra fəsadlar törədib



**Salyanda güclü külək bir sıra fəsadlar törədib.**

"Report"un Aran bürosunun məlumatına görə, külək Salyan şəhərində bir neçə ağacı aşırıb. Əliağa Kürçaylı küçəsində aşan ağac yolun üzərinə düşdüyündən avtomobillərin hərəkəti müvəqqəti məhdudlaşıb.

Bununla yanaşı, təbii hadisə elektrik təsərrüfatlarına da ziyan vurub. Şəhərin H.Əliyev, Ə.Kürçaylı, T.Xəlilbəyli və N.Nərimanov küçələrinin sakinləri 2 saatdan çox işıqsız qalıb.

Küləyin aşırdığı ağaclar aidiyyəti qrumlar tərəfindən kəsilərək ərazidən uzaqlaşdırılıb, elektrik naqilləri isə təmir edilərək əhaliyə verilən elektrik enerjisi bərpa olunub.

## "Təhsil Nazirliyi dərslik yazmır, onu müəlliflər hazırlayır"

### Nazir: "Ölkədə dərsliklərin hazırlanması ilə bağlı mütəxəssis çatışmazlığı var"

(səh.3)



## Şuşa Bəyannaməsi Azərbaycanın təhlükəsizliyinə zəmanət verir

### Türkiyəli professor: "Bundan əlavə, Bəyannamə ilə beynəlxalq hüquqda gücdən istifadəyə icazə verən özünümüdafiə hüququ hərtərəfli tənzimlənir"

(səh.2)





# Paraqvay Azərbaycanın ədalətli mövqeyini dəstəkləyir

## Ceyhun Bayramov bu ölkənin Parlamentinin nümayəndə heyəti ilə görüşüb

**İyunun 13-də Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramov Paraqvay Respublikasının Parlamentinin nümayəndə heyəti - Deputatlar Palatasının Xarici Əlaqələr Komissiyasının sədri, eyni zamanda, Paraqvay-Azərbaycan dostluq qrupunun rəhbəri Valter Enrike Harms Sespedes və Senatdakı Paraqvay-Azərbaycan dostluq qrupunun sədri Lukas Orlando Akino Xara ilə görüşüb.**

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən "Şərq"ə bildirilib ki, qonaqları salamlayan nazir Ceyhun Bayramov, iki ölkə arasında mövcud olan əlaqələrin məmnunluq doğurduğunu və Azərbaycanın Paraqvayla əlaqələrin inkişafına önəm verdiyini qeyd edib. Nazir Ceyhun Bayramov, 2019-cu ildə Azərbaycan Respublikasının xarici işlər nazirinin, habelə 2022-ci ildə Azərbaycan Respublikasının xarici işlər nazirinin müavinin Paraqvaya səfərlərinin, bu xüsusda keçirilən görüşlərin ikitərəfli əlaqələrə töhfə verdiyini bildirib.

Nazir, iki ölkə arasında münasibətlərin inkişafında parlamentlərarası dostluq qruplarının, o cümlədən parlament diplomatiyasının önəmli yer tutduğunu ifadə edib.

Paraqvay-Azərbaycan dostluq qrupunun üzvlərinin Azərbaycanla bağlı məsələlərdə böyük fəallıq göstərdiyi, habelə Xocalı ilə bağlı Paraqvay Parlamenti tərəfindən qətnamənin qəbul edilməsi minnətdarlıqla qeyd olunub. Nazir Ceyhun Bayramov, həmçinin Paraqvay Parlamentinin nümayəndələrinə keçmiş Ermənistan-Azərbaycan münaqişəsinin ağır nəticələri, 44 günlük Vətən müharibəsindən sonra regionda yaranmış yeni reallıqlar, habelə bölgədə aparılan bərpa-quruculuq işləri, sülh quruculuğu istiqamətində atılan addımlar barədə məlumat verib. Hazırda Paraqvay Respublikasının Xarici İşlər Nazirliyinin iki gənc diplomatının ölkəmizdə təlim proqramında iştirak etdiyini qeyd edən nazir Ceyhun Bayramov, bu kimi mübadilələrin ikitərəfli əlaqələrin inkişafında müsbət rol oynadığını bildirib.

Paraqvay Respublikasının Parlamentinin nümayəndə heyətinin üzvləri, öz növbələrində Azərbaycana səfəri və bu xüsusda keçirilmiş görüşləri, habelə işğaldan azad edilmiş ərazilərə edilən səfəri yüksək qiymətləndirərək bu səfərin ölkədəki vəziyyətlə yerindəcə tanış olmaq baxımından əhəmiyyət kəsb etdiyini bildiriblər. Paraqvayın hər zaman beynəlxalq hüququn norma və prinsiplərinə hörmət etdiyini, həmçinin Azərbaycanın ədalətli mövqeyini dəstəklədiyi vurğulanıb. Qarşı tərəf, Azərbaycanla münasibətlərin inkişafında maraqlı olduqlarını və səfərin potensial əməkdaşlıq sahələrinin müəyyən olunması baxımından əhəmiyyətini qeyd ediblər.

*Görüşdə tərəflər, həmçinin qarşılıqlı maraq doğuran digər məsələləri müzakirə ediblər.*

# Türkiyənin kəşfi ölkənin strateji mövqeyini artırdı

## Rəcəb Tayyib Ərdoğan: Sakarya Qaz Yatağı 2026-cı ildə zirvə hasilatına çatacaq




**2023-cü ilin birinci rübündə birinci mərhələdə gündə hasil olunacaq 10 milyon kubmetr təbii qazı milli ötürmə sistemimizə köçürəcəyik. İnşallah, Sakarya Qaz Yatağı 2026-cı ildə zirvə hasilatına çatacaq.**

Azərtac xəbər verir ki, bu fikirləri Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Qara dəniz qazının ilk borularının endirilməsi və qaynaq mərasimində çıxışı zamanı bildirib.

Ötən il təməli qoyulan təbii qaz emalı zavodunun tikintisinin davam etdirildiyini bildirən Türkiyə Prezidenti qeyd edib ki, hazırda ölkəsinin özünəməxsus dörd qazma və iki seysmik tədqiqat gəmiləri var.

Bildirilib ki, Türkiyənin etdiyi bu kəşf ölkənin strateji mövqeyini artırdı. Dünyada həddsiz qiymət artımı var. Enerji daşıyıcılarının bahalaşması inflyasiyada da özünü göstərib. Türkiyə ölkə olaraq vətəndaşlarını qorumaq üçün dəstək mexanizmlərini işə salıb.

Ölkənin Qazma işləri ilə ön plana çıxan Sultan Əbdülhəmidin adının dördüncü qazma gəmisinə verildiyini qeyd edən Prezident Ərdoğan Türkiyəni enerji təchizatı təhlükəsizliyi problemini tamamilə həll etmiş bir ölkəyə çevirənə qədər mübarizəni çoxşaxəli şəkildə davam etdirəcəklərini deyib.

Sonra Qara dəniz qazını quruya ötürəcək ilk borular qaynaq edilərək suya endirilib.

# Ukraynadakı beynəlxalq legiona 55 ölkədən könüllülər qoşulub



**Ukraynada Rusiyanın hücumu ilə əlaqədar yaradılmış beynəlxalq legiona dünyanın 55 ölkəsindən könüllülər qoşulub.**

Azərtac Ukrinform agentliyinə istinadla xəbər verir ki, bu rəqəmi Ukraynanın beynəlxalq müdafiə legionunun nümayəndəsi Damyen Maqru brifinqdə səsləndirib. Onun sözlərinə görə, legionda bütün qitələrdən, hətta Braziliya, Cənubi Koreya, Avstraliya kimi uzaq ölkələrdən könüllülər var.

Maqru, həmçinin bildirib ki, legionda amerikalılar və britaniyalılar çoxluq təşkil edir. Onlardan sonra polyaklar, kanadalılar və müxtəlif ölkələrin nümayəndələri gəlir.

Beynəlxalq legionun nümayəndəsi informasiyanın məxfiliyini əsas gətirərək, legionerlərin ümumi sayını açıqlamaqdan imtina edib. O, maliyyələşmə məsələsinə dair suala cavab verərkən qeyd edib ki, beynəlxalq legion Ukrayna Silahlı Qüvvələrinin tərkibinə daxildir və müdafiə büdcəsindən maliyyələşir.

# Şuşa Bəyannaməsi Azərbaycanın təhlükəsizliyinə zəmanət verir

## Türkiyəli professor: "Bundan əlavə, Bəyannamə ilə beynəlxalq hüquqda gücdən istifadəyə icazə verən özünümüdafiə hüququ hərtərəfli tənzimlənir"

**2021-ci il iyunun 15-də Azərbayan Prezidenti İlham Əliyev və türkiyəli həmkarı Rəcəb Tayyib Ərdoğan arasında müttəfiqlik əlaqələri haqqında Şuşa Bəyannaməsi imzalanıb. Həmin sənəd 2022-ci ilin fevralın 1-də Azərbaycanda, 3-də isə qardaş Türkiyədə tarixi sənəd kimi rəsmi surətdə ratifikasiya edilib.**

Bəyannaməyə əsasən, Türkiyənin Azərbaycanın işğaldan azad edilmiş ərazilərində Türkiyə-Rusiya Birgə Mərkəzinin fəaliyyətinə verdiyi töhfə regiondakı sülhün, sabitliyin və rifahın təmin edilməsində mühüm rol oynayır.

Azərbaycan və Türkiyə Respublikası müstəqillik, suverenlik, ərazi bütövlüyü, beynəlxalq səviyyədə tanınmış sərhədlərin toxunulmazlığı, dövlətlərin daxili işlərinə qarışmamaq prinsiplərini rəhbər tutaraq, müttəfiqlik münasibətlərinin qurulmasının siyasi və hüquqi mexanizmlərini müəyyən edir.

**Türkiyəli professor, "Qafqaz Strateji Araşdırmalar" Mərkəzinin rəhbəri Hasan Oktay "Şərq"ə açıqlamasında bildirib ki, müstəqillik əldə etdikdən sonra Azərbaycan və Türkiyə arasında imzalanan müqavilələrdə iki ölkənin münasibətlərinin hansı səviyyədə olduğunu göstərə bilən "strateji tərəfdaşlıq" ifadəsindən istifadə olunub:** "Əslində bu ifadə beynəlxalq əlaqələrdəki vəziyyəti ümumiləşdirərək, "dövlətlər arasında qardaşlıq yoxdur, maraqlar var"- deyir. Lakin 2020-ci il sentyabrın 27-də başlayan və 2020-ci il noyabrın 10-da Azərbaycanın qələbəsi ilə başa çatan İkinci Qarabağ müharibəsindən sonra imzalanan "Moskva müqaviləsi" rəsmi Bakının maraqlarına o qədər də xidmət etmirdi. Ona görə də Türkiyə 15 iyun 2021-ci il tarixində "Türkiyə və Azərbaycan Respublikası arasında Müttəfiqlik Münasibətləri haqqında Şuşa Bəyannaməsi adı ilə bir saziş imzaladı.

Müqavilə iki ölkə arasında münasibətlərin strateji tərəfdaşlıqla yanaşı, qardaşlıq çərçivəsində olduğunu göstərib. Bundan əlavə, Bəyannamə ilə beynəlxalq hüquqda gücdən istifadəyə icazə verən özünümüdafiə hüququ hərtərəfli tənzimlənir.

"Moskva müqaviləsindəki" çatışmazlıqları tamamlamaq və Azərbaycanın təhlükəsizliyini təmin etmək üçün bağlanmış "Şuşa müqaviləsi"nə görə, tərəflərdən hər hansı birinə qarşı hücum olarsa, qarşı tərəf bu hücumu dəf etməyə kömək edəcək.



Şuşa Bəyannaməsinin iki ölkə arasında münasibətləri "müttəfiqlik" səviyyəsinə yüksəltməsi tarixi əhəmiyyət kəsb edir. Beynəlxalq müqavilənin imzalanması tərəflərdən sazişə uyğun hərəkət etməyi tələb edir. Öhdəliyin pozulmasına dövlət cavabdehlik daşıyır. Bu baxımdan gələcəkdə Türkiyədə və ya Azərbaycanda hakimiyyət dəyişikliyi olsa belə, Şuşa Bəyannaməsi ilə verilən "müttəfiqlik" statusu davam edəcək. Əks halda məsuliyyət ölkələrin üzərinə düşür. Ona görə də saziş həm də iki qabaqcıl ölkə arasında yaxşı münasibətlərin qorunub, saxlanmasında "dəstəkləyici güc" xarakteri kəsb edir.

Beynəlxalq hüquq baxımından sazişin məcburi olması üçün daxili və beynəlxalq hüquq çərçivəsində bəzi addımlar atılmalıdır. Daxili qanunvericiliyə görə, dövlətlərin bu prosedurları istədikləri kimi seçmək azadlığı var.

Beynəlxalq müqavilənin Azərbaycan və Türkiyənin daxili qanunvericiliyində məcburi qüvvəyə malik olması üçün parlamentləri onu ratifikasiya etməlidir. Eyni zamanda sazişin qüvvəyə minməsi üçün prezident imzası gərəklidir.

Bu kontekstdə Şuşa Bəyannaməsini hər iki ölkənin parlamentləri təsdiq edib və prezidentləri imzalayıb, qüvvəyə minib. Məhz buna görə də Şuşa Bəyannaməsi beynəlxalq hüququn tələb etdiyi bütün şərtləri yerinə yetirən və adıçəkilən dövlətlər üçün məcburi qüvvəyə malik olan müqavilədir.

Türkiyə-Moskva atəşkəs razılaşmasının qeyri-adekvatlığını əsas götürərək, Cənubi Qafqazda Azərbaycanla ölkənin təhlükəsizliyinə zəmanət verən Şuşa Bəyannaməsini imzalayıb".

**Sücayət Mehti**

# Xarici diplomatlar Şuşaya səfər edib

**Beynəlxalq İnkişafa Yardım Agentliyi (AIDA) vasitəsilə Xarici İşlər Nazirliyi və ADA Universiteti nəzdində fəaliyyət göstərən İnkişaf və Diplomatiya İnstitutunun İxtisasartırma Proqramları tərəfindən birgə təşkil olunan "Əcnəbi Diplomatlar üçün Xarici Siyasət Proqramı - 2022" adlı beynəlxalq kursun iştirakçısı olan 14 xarici diplomat üçün Şuşa şəhərinə xüsusi səfər proqramı təşkil edilib.**



ADA-dan "Şərq"ə verilən məlumata görə, səfər zamanı xarici qonaqlar işğaldan azad olunmuş ərazilərdə işğalın ağır nəticələri, Azərbaycan xalqının maddi-mədəni və tarixi irsinə qarşı törədilmiş soyqırım fəaliyyəti nəticəsində dağıdılmış yaşayış məskənləri və mədəni-tarixi nümunələrlə tanış olublar.

Eyni zamanda, Ermənistanın beynəlxalq hüquqa zidd və qeyri-insani fəaliyyəti nəticəsində vaxtilə işğal altında olan ərazilərdə ciddi mina təhlükəsinin olduğu və minalanmış ərazilərin dəqiq xəritəsinin Azərbaycan tərəfinə hələ də verilmədiyi, post-müharibə dövründə 200-dən artıq Azərbaycan vətəndaşının, o cümlədən uşaqların və jurnalistlərin mina qurbanları olduğu xarici diplomatların diqqətinə çatdırılıb.

Səfər müddətində Şuşada və yol boyunca işğaldan azad olunmuş ərazilərdə aparılan yenidənqurma və geniş miqyaslı tikinti işləri ilə tanış olan qonaqlar aparılan fəaliyyətin həcmi və sürətini alqışlayıblar. Onlara torpaqların azad edilməsi ilə bu ərazilərin yenidən dünyanın iqtisadi, mədəni və turistik xəritəsinə geri qayıtdığı və bugünə kimi Azərbaycan hökumətinin bunun yeganə təminatçısı olduğu bildirilib.

Xarici diplomatlara işğaldan azad olunmuş ərazilərimiz, o cümlədən Şuşa şəhərinin Azərbaycan və Qafqazın ictimai-siyasi həyatında oynadığı rol haqda geniş məlumat verilib. Qarabağ xanı Pənahəli Xan tərəfindən şəhərin əsasının qoyulmasının 270 illiyini qeyd etmək və aparılan quruculuq işlərini sürətləndirmək məqsədilə 2022-ci ilin Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən Azərbaycanda "Şuşa İli" elan edildiyi bildirilib.

Beynəlxalq səviyyədə insan kapitalının inkişafı və əməkdaşlığın gücləndirilməsi məqsədini daşıyan proqramda 11 ölkədən (Albaniya, Burundi, Çad, Qabon, Qazaxıstan, Macarıstan, Mərakeş, Rumıniya, Paraqvay, Şri-Lanka və Konqo) 14 xarici diplomat iştirak edir. İki həftəlik builki proqram çərçivəsində iştirakçılar üçün Xarici İşlər Nazirliyini təmsil edən peşəkar diplomatlar, ADA Universitetinin mütəxəssis-müəllim heyəti, eləcə də millət vəkilləri, İqtisadiyyat Nazirliyi, Ekologiya və Təbii Sərvətlər Nazirliyi, ARDNŞ, ANAMA, Qarabağ Dirçəliş Fondu, Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzi, ASAN Xidmət və Bakı Beynəlxalq Dəniz Ticarət Limanı kimi qurumların nümayəndələri tərəfindən təqdimat və mühazirələr təşkil olunur.

# Ukrayna Prezident Ofisi açıqladı

## "Rusiya uduzanadək müharibə davam edəcək"

**"Ukrayna Prezidenti Volodimir Zelenski qarşıya iki proqram qoyub: minimum və maksimum".**



"Report" xəbər verir ki, bunu Ukrayna Prezident Ofisinin müşaviri Mixaylo Podolyak Belarusda çıxan "Zerkalo" qəzetinə müsahibəsində bildirib.

"Prezidentin təklif etdiyi minimum proqram Rusiya qoşunlarının fevralın 23-dəki mövqeyinə çəkilməsidir. Bundan sonra biz bir-birimizə qarşı bütün iddiaları müzakirə edə biləcək sülh danışıqlarına başlaya bilərik. Maksimum tapşırıq isə Ukraynanın beynəlxalq səviyyədə tanınan sərhədləri daxilində ərazi bütövlüyü, Rusiyanın məğlubiyyəti və dəyişikliyin edilməsindən ibarətdir. Əks halda Rusiya zəhərli təbliğat aparacaq, revanşist ovqatla yeni müharibənin bərpasına səy edəcək. Problem budur", - o vurğulayıb.

M.Podalyak deyib ki, Ukrayna Rusiyaya ərazilərini tərk etməsi zəruriliyini sübuta yetirənədək müharibə davam edəcək: "Bu, çox mürəkkəb və çətindir. Bunu sübut etmək üçün hər gün qəhrəman oğullarımız həlak olur. Həmin insanlar dövlət üçün əlavə dəyər yaradırlar. Bizim adamlar həlak olurlar. Onlar həlak olurlar. Bu o deməkdir ki, biz son dərəcə vacib olanı Ukrayna üçün itiririk. Bu bizim qızıl sərvətimizdir. Qiymətimizi aşağı salacaq mexanizm tapmaq mümkün deyil. Rusiya Federasiyasının nə qədər ödədiyi məni maraqlandırmır. Bu bizim üçün yüksək qiymətdir. Ancaq buna baxmayaraq, Rusiya uduzanadək mübarizəni aparacağıq".

# Yolumuz birdir

## Şuşa Bəyannaməsi Azərbaycanla Türkiyənin birliyini bir daha dünyaya göstərdi



**Azərbaycan Prezidenti İlham Əliyevlə Türkiyə rəhbəri Rəcəb Tayyib Ərdoğan arasında Şuşa Bəyannaməsinin imzalamasının birinci ildönümüdür.**

Ötən ilin iyunun 15-də liderlərin Şuşa şəhərində imzaladığı müttəfiqlik sənədi iki ölkə arasında hərbi-siyasi və təhlükəsizlik məsələlərinin müştərək strateji maraqlar yaradan məcmusu sayılır. Sənədin nüvəsini təhlükəsizlik və hərbi-siyasi əməkdaşlığın dərinləşdirilməsi, təhdidlərə qarşı birgə mübarizə əzmi təşkil etdiyindən elə bu istiqamətlər üzrə daha çox inkişaf nəzərə çarpır. Bir illik periodda, Azərbaycanla Türkiyə strateji müttəfiqlik maraqlarını ən üst səviyyəyə qaldırmaq üçün bir-birinə dəstək göstərdilər. Şuşa Bəyannaməsindən sonra Azərbaycan Ordusunun Türkiyə modelinə sürətli keçidi mərhələsinə qədəm qoyuldu. Komando hərbi birlikləri yaradıldı və ordunun strukturunda da Quru Qoşunları komandanı vəzifəsi təsis edildi. Bölgə xalqlarının həyatında öz siyasi, tarixi, strateji əhəmiyyətinə görə Şuşa bəyannaməsi yalnız 100 il əvvəl, 13 oktyabr 1921-ci ildə 5 dövlət arasında bağlanmış Qars müqaviləsi ilə müqayisə edilə bilər. Şuşa Bəyannaməsi ölkələrimiz arasındakı münasibətlərin yeni strateji mərhələyə

> “Müstəqillik, təhlükəsizlik və müdafiə yolunda tək olmadığımızı hamıya əyani nümayiş etdirdik”

qaldırılmasını nəzərdə tutmaqla yanaşı, yeni hədəfləri də müəyyən edir. Eyni zamanda Qafqaz bölgəsi xalqları arasında dinc birgəyaşayış və əməkdaşlıq perspektivlərini də özündə ehtiva edir. Şuşa Bəyannaməsi ölkələrimiz arasında hərbi, siyasi, iqtisadi, turistik, mədəni əlaqələrimizin yeni mərhələsini müəyyən etməklə, həm də dünya dövlətlərinə, o cümlədən regionda sülhə və sabitliyə əngəl olmaq istəyən dövlətlərə sərt xəbərdarlıq bildirir. Heç şübhəsiz, Şuşa Bəyannaməsində nəzərdə tutulan müddəaların hamısı zaman-zaman həyata keçəcək, icra olunacaq. Bölgəmizə davamlı sülh, iş birliyi və rifah gətirəcək. Türkiyəni və Azərbaycanı uzun illər regionda əsas söz sahibi kimi tanıdacaq. Şuşa Bəyannaməsi bölgədə davamlı və daimi sülhün bərqərar olunmasına, bölgə dövlətləri arasında qarşılıqlı etimad mühitinin yaranmasına möhkəm siyasi-hüquqi əsaslar yaradacaq.

**Millət vəkili Elman Məmmədov ”Şərq”ə açıqlamasında Şuşa Bəyannaməsinin tarixi sənəd olduğunu deyib.** Deputatın sözlərinə görə, bəzən insanlar hansısa sənədin nə dərəcədə əhəmiyyətli olmasını həmin razılaşmaya əsaslanan addımlar atılanda dərindən anlayırlar. Amma Şuşa Bəyannaməsi imzalandığı ilk gündən nə qədər dəyərli və vacib olduğunu hər kəsə göstərdi: ”Türkiyə müttəfiqlik sənədi ilə bütün dünyaya mesajlar verdik. Müstəqillik, təhlükəsizlik və müdafiə yolunda tək olmadığımızı hamıya əyani nümayiş etdirdik. Azərbaycanın Türkiyə kimi müttəfiqi var. Dövlətlər arasında bundan yüksək səviyyədə sənəd ola bilməz. Şuşa Bəyannaməsi iki dövlət arasında hər sahədə bütün növ əməkdaşlıqları özündə ehtiva edir. Sənəd imzalanan gündən etibarən bütün istiqamətlərdə Türkiyə ilə birlikdə yol qət edirik. Müqavilənin əhəmiyyəti bütün müddəalarda özünü göstərir. Siyasi-iqtisadi məsələlərlə yanaşı, hərbi-əməkdaşlıq və müdafiə-təhlükəsizlik sahəsində, beynəlxalq aləmdə Azərbaycan-Türkiyə birgə əməkdaşlığı ən yüksək səviyyədədir. Bizə dost olmayan qüvvələr də bu sənəddən öz paylarını götürürlər”.

**İsmayıl Qocayev**

# Təhsil eksperti DİM-i müdafiəyə qalxdı

## ”30 ildən çoxdur, şəffaf, obyektiv imtahanlar keçirir”






**Dövlət İmtahan Mərkəzi ötən il ali təhsil müəssisələrinə imtahan vermiş abituriyentlərin nəticələri ilə bağlı narahatlıqları ”Abituriyent 12” jurnalında qeyd edib. Məlumatda bildirilib ki, test tapşırıqları məktəb proqramı çərçivəsində hazırlanır. Ancaq görünən odur ki, orta statistik məzun məktəb proqramının 42-73 faizini mənimsəmir.**

Dövlət İmtahan Mərkəzinin qənaətinə əsasən, buna səbəb məktəblərin böyük qismində tədris prosesinin normal aparılmaması, tələbkarlığın zəifliyi, ən başlıcası isə müəllimlərin çoxunun peşəkarlıq səviyyəsinin aşağı olmasıdır. Təhsil eksperti Elşən Qafarov isə tam fərqli fikirlər səsləndirib. Ekspert bildirib ki, yaranmış vəziyyətdən çıxış yolu var. Ancaq bunun üçün Dövlət İmtahan Mərkəzindən test hazırlamaq, vəsait buraxmaq və xüsusi proqramla fəaliyyət göstərmək səlahiyyətləri alınmalı və yalnız imtahanları keçirən texniki bir quruma çevrilməlidir. Testologiya mərkəzi və ya institutu yaradılmalıdır ki, sualların tərtibi məsələsinə məhz o qurum nəzarət etməlidir”.

**Təklifə münasibət bildirən təhsil eksperti Kamran Əsədov ”Şərq”ə açıqlamasında bildirib ki, DİM öz işini layiqincə yerinə yetirir:**

”Azərbaycanda imtahan keçirmək üçün yeganə avadanlıqlar və test bazası DİM-də mövcuddur. Bu qurum 30 ildən çoxdur şəffaf, obyektiv və əlçatan imtahanlar keçirir.

İştirakçıların bilik və bacarıqları dövlətin təyin etdiyi standartlara uyğun yoxlanılır və heç bir sual orta məktəb kitablarından kənar deyil. İmtahan suallarının başqa qurum tərəfindən hazırlanmasına ehtiyac yoxdur.

Çünki biz digər qurumlar tərəfindən keçirilən imtəhanlardakı problemləri gördük”.

**Nihat Müzəffər**

# Enerji təhlükəsizliyində Azərbaycanın rolu artır

## Bu isə ölkənin regional geosiyasi mövqeyini daha gücləndirir



**Azərbaycan Rusiya-Ukrayna müharibəsi başladıqdan sonra Avropa Birliyinə mavi qaz ixracatını ən çox artıran ölkədir.**

Bu ilin ilk 5 ayında Azərbaycan Avropaya qaz ixracatını əvvəlki ilin uyğun dövrü ilə müqayisədə 2.2 dəfə artıraraq 2.1 milyard kubmetrdən 4,5 milyard kubmetrə yüksəldib. Bütövlükdə, Azərbaycanın qaz ixracatı 27 faiz artaraq 9.4 milyard kub metrə çatıb.

**Millət vəkili Vüqar Bayramov deyib ki, Rusiyanın bir sıra Avropa ölkələrinə mavi qaz ixracatının məhdudlaşdırılması barədə qərarından sonra Avropa İttifaqında enerji təhlükəsizliyi məsələsi daha da prioritetləşib.** Deputat bildirib ki, “Qədim qitə” alternativ mənbələrdən qaz idxalını artırmağa çalışsa da, hələlik və bəlli bir müddət “Qazprom” Avropada dominantlığını qoruyub saxlamağa çalışır: “Bu ilin ilk 5 ayının nəticələri də göstərir ki, Azərbaycanın Avropanın və eləcə də regionun enerji təhlükəsizliyinin formalaşmasında rolu artmaqdadır. 2020-ci ilin dekabrından sonra Azərbaycan Avropaya 11 milyard kub metrdən çox mavi qaz nəql edib. Ötən il 43.9 milyard kub metr qaz hasilat edən ölkəmizdə istehsalın bu il daha da artacağı gözlənilir. Avropa İttifaqının enerji təhlükəsizliyində Azərbaycanın rolunun artması ölkənin regional geosiyasi mövqeyini daha gücləndirir”.

**İsmayıl**

# Rusiya Putindən də betər birini "doğacaq"

## Natiq Cəfərli: “Dünya fəlakətlərlə üz-üzə qala, hətta nüvə müharibəsi təhlükəsi sivilizasiyanın tamamən məhv olması ilə nəticələnə bilər”

**Ukraynada hərbi əməliyyatlar dayandırıldıqdan sonra Avropa Rusiya ilə birgə yaşamağa davam etməlidir. Bu barədə Avropa İttifaqının xarici işlər və təhlükəsizlik siyasəti üzrə ali nümayəndəsi Jozep Borrel deyib.**

O bildirib ki, Moskva ilə dialoq dayanmamalıdır. O, Rusiyanın sülh danışıqlarından sonra mövcudluğunu davam etdirəcəyini söyləyib. Diplomatın fikrincə, Avropa Rusiya ilə necə yaşayacağını dəqiq müəyyən etməlidir: ”Rusiyanın Ukraynada etdiklərindən sonra belə birgəyaşayış çox çətin olacaq. Ancaq yenə də bu qitədə ruslarla birlikdə yaşamağa çalışmalı olacaqsınız. Biz Rusiya ilə danışıqları davam etdirməliyik”.

Borrel əlavə edib ki, Moskva ilə əlaqə kanalları heç vaxt bağlanmayıb və bağlanmayacaq. Xatırladaq ki, Fransa Prezidenti Emmanuel Makron Ukraynada döyüşlər dayandırıldıqdan sonra diplomatik həll yolunun tapılması üçün Rusiyanın alçaldılmamasının həyati əhəmiyyət daşıdığını demişdi. O, Parisin münaqişənin sona çatması üçün vasitəçi rol oynayacağına inandığını bildirmişdi.



**ReAl Partiyasının sədr müavini Natiq Cəfərli deyib ki, Makronun ”Rusiyanı alçatmaq olmaz, anlaşmaq lazımdır” tezisinə Borreldən dəstək gəlsə də, bəzi Avropa ölkələri və ABŞ siyasətçiləri bu fikri sərt tənqid edirlər. Partiya funksioneri xatırladıb ki, Birinci Dünya müharibəsindən sonra Almaniya alçaldıcı sülhə imza atmağa məcbur qaldı:** ”Almaniya təkcə bəzi torpaqlarını deyil, qürurunu da itirdi, aşağılandı. Fransa isə qalib ölkə kimi Almaniya ərazisində istədiklərini etdi. Alman xalqını hər addımda alçaltdılar. Nəticədə bu vəziyyət Hitleri ”doğdu”. Cəmi 20 il sonra Almaniya Parisə daxil olub Fransanın tamamına yaxınını işğal etdi. Sonda məğlub olsa da, Avropa və dünya üçün fəlakətlərə yol açdı. 100 milyon insanın həyatına, onminlərlə şəhərin, kəndin dağıdılmasına yol açdı. Aşağılanmış, alçaldılmış Rusiya Putindən də betər birini ”doğacaq”. Dünya fəlakətlərlə üz-üzə qala, hətta nüvə müharibəsi təhlükəsi sivilizasiyanın tamamən məhv olması ilə nəticələnə bilər. Məhz buna görə Rusiya ilə bağlı belə bəyanatlar səsləndirilir”.

**İsmayıl**

# “Təhsil Nazirliyi dərslik yazmır, onu müəlliflər hazırlayır"

## Nazir: “Ölkədə dərsliklərin hazırlanması ilə bağlı mütəxəssis çatışmazlığı var”




**Ölkədə dərsliklərin hazırlanması ilə bağlı mütəxəssis çatışmazlığı var.**

**Bunu jurnalistlərə açıqlamasında təhsil naziri Emin Əmrullayev deyib.**

**O bildirib ki, Təhsil Nazirliyi 300-dən çox dərslik hazırlayır: ”Onun hansısa səhifəsində hərf səhvi, hansısa dizayn problemləri ola bilər”.**

”Biz pedoqoji problemləri texniki səhvlərdən ayırmağı öyrənməliyik. Siz əgər bir neçə milyon səhifəlik kitab çap edirsinizsə, onun içində iki hərf səhvinin olmağı və ya onu tapmaq böyük bir əhəmiyyətli hadisə kimi qiymərləndirilməməlidir. O ki qaldı dərsliklərin pedoqoji tərəflərinə, Təhsil İnstitutu tərəfindən son 4 ildir ehtiyat dərsliklər hazırlanır. Bizim üçün maraqlı olardı ki, ibtidai sinif dərslikləri ilə bağlı ictimai rəy alaq. Dərsliklər çap olunmamışdan əvvəl onlar ictimaiyyətə təqdim olunur. Təhsil Nazirliyi dərslik yazmır, onu müəlliflər hazırlayır. Nazirlik həmin dərslikləri elektron bazaya yerləşdirir. Məsələn, hər kəs gələn il çıxacaq dərslikləri bazaya daxil olaraq, oxuya bilər. Xahiş edirik ki, kiminsə rəyi varsa, dərslik çap olunandan sonra deyil, əvvəlcədən bildirsin və bunu məqbul sayırıqsa, yenidən baxıraq” - o bildirib.

**Nazir onu da qeyd edib ki, dərslik sahəsində mütəxəssis hazırlığı da çox vacib işdir:** ”Bu istiqamətdə Sinqapurla, digər ölkələrlə əməkdaşlıq edirik”.

”Bu, asan məsələ deyil. Ölkədə dərslik hazırlanması sahəsində mütəxəssis çatışmazlığı var. Təbii ki, Azərbaycanda insanların bildiyi və bilmədiyi şeylər haqqında danışması ayıb sayılmadığı üçün burada müəyyən rəylər də var. Amma biz bütün rəylərə hörmətlə yanaşırıq. Amma istəyirəm biləsiniz ki, Təhsil Nazirliyində peşəkar rəyi emosional əsası olmadan rəydən ayırmaq qabiliyyətimiz də var. O nöqteyi nəzərdən yavaş-yavaş dərsliklərdəki obyektiv çətinliklərin aradan qaldırılması ilə şagirdlərimizə daha yaxşı dərsliklər verə biləcəyimizə inanıram”, - deyə nazir qeyd edib.

# Ölüm riski dodağımızın altındadır

## Marketlərdə dondurmaların saxlanma şəraiti ürəkaçan səviyyədə deyil

**Yay aylarında ən çox istehlak etdiyimiz qidalardan biri də dondurmadır. Sərinləmək üçün uşaqdan böyüyə hər kəsin sevərək yediyi dondurmaların keyfiyyəti ilə bağlı isə heç bir zəmanət yoxdur.**

Mütəxəssislərin fikrincə, dondurma alarkən məhsulun etiketində qeyd edilmiş temperaturda saxlanmasına diqqət edilməlidir. Eyni zamanda, məhsulun etiketində istehsal və son istifadə tarixi düzgün qeyd edilməlidir. Dondurmaların saxlanma şəraitinə də mütləq əməl edilməlidir.



**Qida məsələləri üzrə ekspert Ağa Salamovun ”Şərq”ə açıqlamasına görə, dondurma da riskli qidadır və riskli qidalar kimi, istehsalatdan marketlərə dərin dondurucu ilə təmin olunmuş maşınlarda çatdırılması vacibdir:**

”Marketə gəlməmişdən öncə dondurma istehsal edən sexlərdə dərindən sanitar gigiyena qaydalarına riayət olunması mütləqdir və qanundur. Belə ki, istehsal sexlərində dondurma istehsal edən avadanlıqları, hər gün iş bitdikdən sonra və ya iş zamanı qida qalığı ilə çirklənməsi baş verdiyi təqdirdə təmizlənməsi də mütləqdir. Bu kimi qanunlardan yayınan və məsuliyyətsiz işləyən sexlər birmənalı olaraq xəbərdarlıq edilmədən bağlanması təmin olunmalıdır. İnsan həyatını riskə atan bu cür işbazlar da məsuliyyətə cəlb olunmalıdır”.

**Marketlərdə dondurmaların saxlanma şəraitinin ürəkaçan səviyyədə olmadığını vurğulayan ekspert deyib ki, nəzarət sisteminin sıfır olması və özbaşınalıqlar insanların həyatı bahasına başa gəlir ki, bu da ən azından zəhərlənmə ilə nəticələnir:**

”Bəzi marketlərin generator ilə təmin olunmaması, yəni elektrikin getməsi nəticəsində, donmuş məhsulların donunun açılması və elektrik təmin olunandan sonra yenidən donması da ağır zəhərlənmələrə yol açır. Mən hələ qapağı aralı qalan dondurucuları demirəm. Bir sözlə, istehsaldan istehlakçıya sağlam qida ötürülməsi vacibdir. Burda da məsuliyyət birbaşa həm istehsalçıların üzərinə düşür, həm də marketlərin. Əks təqdirdə qida zəncirində buraxılan kobud səhv nəticəsində insanlar zəhərlənə və ya ağır nəticə (ölümlə) ilə üz-üzə qala bilər və qalırlar da”.

**Şəymən**

# "Görünmədən görmək, ölmədən dönmək"

## Düşməni susdurmağa bir atəş bəs edir



Azərbaycanın relyefinə uyğun snayper mütəxəssisləri yetişdirilir

**Şəymən**

**2022-ci ilin döyüş hazırlığı planına uyğun olaraq Azərbaycan Ordusunda snayperlərin peşəkarlığının artırılması və döyüş vərdişlərinin təkmilləşdirilməsi məqsədilə təlim keçirilir. Müdafiə Nazirliyinin məlumatına görə, təlim zamanı snayperlər gecə və gündüz vaxtı atəş mövqeyinin seçilməsi, fərdi və qrup şəklində müxtəlif məsafələrdə yerləşən hədəflərin aşkar olunaraq sərrast atəşlə məhv edilməsi, eləcə də digər mövzular üzrə qarşıya qoyulan tapşırıqları icra edirlər.**

Məlumat üçün bildirək ki, snayperlər xüsusi adamlardır. Snayperin əsas keyfiyyətləri sərhədsiz səbir, gözə görünməmək qabiliyyəti və hadisələri intiusiyanın köməyi ilə öncədən təxmin etmək bacarığıdır. Bir snayper atəşi üçün vacib şərtlər var. Yaxşı və sərraf atıcı olmaqla yanaşı dözüm, hazırlıq, səbir və həftələrlə gözləmə bacarığı lazımdır.

Snayperlər barədə ”Düşmənlər qorxur, dostlar hörmət edir” deyirlər. Snayperlərin dəyəri yalnız düşmənə vurduğu zərərlə ölçülmür. Snayperin olma fikri düşmənlərə qorxu yaşadır, onların qərar və hərəkətlərinə təsir edir.

Snayper sənəti zamanla fövqəladə bir şey kimi görünür, hissiyyat və öncədən görmə qabiliyyəti isə mistika ilə sərhədlənir, amma snayperlər barədə əfsanələr, nə qədər inanılmaz olsa da real faktlara əsaslanır.

**”Şərq”ə açıqlamasında Azərbaycanda snayperlərin peşəkarlıq səviyyəsini yüksək dəyərləndirən hərbi analitik Alp Arslan İmamqulu deyib ki, Azərbaycan Ordusunda snayperlərin peşəkarlığının artırılması istiqamətində müntəzəm addımlar atılır.** Xüsusən də Qarabağ müharibəsində əldə olunan hərbi nailiyyətlərdən sonra bu sahənin daha da inkişaf etdirilməsinə xüsusi diqqət və maraq göstərilir:

”Bilirsiniz ki, Vətən müharibəsindən dərhal sonra ordumuzun Türkiyə ordusu modelində daha da təkmilləşdiriləcəyi ilə bağlı çox ciddi addımlar atılır. Bu istiqamətdə görülən işlərdən biri də komando briqadalarının yaradılmasıdır və bu, çox önəmli bir dəyişiklikdir. Bu bölmələrdə olan hərbçilər üçün əsas götürülən meyarlardan biri də peşəkar atıcılıq qabiliyyətidir. Hər bir fərd üçün snayper silahlarından istifadə etmək əsas şərtlərdən biridir. Paralel olaraq, digər ordu birləşmələrində də snayper bacarıqlarının artırılması və peşəkar mütəxəssislərin yetişdirilməsi istiqamətində bir sıra mühüm addımlar atılır. Buna səbəb Azərbaycan ərazisinin relyefində dağlıq və yüksəklik hissələrin çoxluq təşkil etməsi ilə bağlıdır. Düşmənin terror xarakterli hücumlarının qarşısını ala bilmək üçün yüksək peşəkarlıq qabiliyyətli snayper mütəxəssislərinin yetişdirilməsi Azərbaycan Silahlı Qüvvələrinin əsas hədəflərindən biridir”.

**Hərbi analitikin sözlərinə görə, orduda xidmət edən əsgərlər arasından snayperlərin seçimi zamanı atış qabiliyyəti yüksək olanlara daha çox üstünlük verilir:** ”Daha sonra isə dözüm, hazırlıq, səbir və həftələrlə gözləmə bacarığı kimi digər məziyyətlər əsas götürülür. Seçilmiş hərbiçilərə daha sonra Azərbaycanda və bizimlə müttəfiq olan bir sıra xarici ölkələrdə xüsusi kurslar keçirilir. Bu kurslardan keçən mütəxəssislər xüsusi əhəmiyyətli əməliyyatlara cəlb olunurlar.

Ordu sıralarında peşəkar snayperlərin xüsusi əhəmiyyətindən söz açan A.İmamqulu deyib ki, snayperlər düşməni uzaq məsafədən aşkarlayaraq məhv etmə bacarığına sahib olmalıdır:

”Onların əsas devizi ”Görünmədən görmək, ölmədən dönmək”dir. Onlar eyni zamanda ərazinin relyefinə uyğun kamüflaj olunmalıdır. Snayperlərin düşmənə qarşı göstərdiyi ən məqsədyönlü fəaliyyətlərindən biri gözlənilmədən onu dəf etmək imkanlarıdır. Nümunə olaraq, dərinliklərdə əməliyyatlar zamanı dəstək məqsədi ilə düşmənin snayperlər tərəfindən uzaq məsafədən zərərsizləşdirilməsi ciddi üstünlüklərdəndir. Dövlət sərhədlərimiz delimitasiya olunmadığı üçün Kəlbəcər və Laçın istiqamətində düşmən tərəfindən həyata keçirilən təxribatlar məhz snayperlərimiz tərəfindən dəf edilir. Üçtərəfli bəyanatda öz əksini tapmasına rəğmən, Rusiya sülhməramlıları tərəfindən bir sıra təxribatların qarşısı alınmadığı üçün işğaldan azad olunan digər rayonlarımızda da düşmən terror aktlarına cəhd etməkdədir. Məhz əvvəlcədən terroristlərin uzaq məsafədən aşkarlanması və məhv edilməsi də snayperlərin əhəmiyyətli töhfələrindəndir. Bu mənada snayper mütəxəssislərinin Azərbaycan Ordusunda rolu və əhəmiyyəti danılmazdır”.



# Görülən işlər göz önündədir

## Azərbaycanda şəhid ailələrinə, müharibə iştirakçılarına göstərilən xidmət yüksək səviyyədədir

**Postmüharibə dövründə şəhid ailələri və müharibə əlillərinə göstərilən qayğı yüksək səviyyədə davam etdirilir. Nəzərdə tutulan şəxslərin sosial xidmətlərlə təminatı işlərinə dair mətbuat konfransı keçirilib. Sosial Xidmətlər Agentliyinin sədri Vüqar Behbudov qeyd edib ki, bu il daha 1500 şəhid ailəsi və müharibə əlilinə mənzil və fərdi evin verilməsi nəzərdə tutulub:**

”2021-ci ildə 3 min, 44 günlük Vətən müharibəsindən sonra isə 3500 şəhid ailəsi və müharibə əlili mənzil və fərdi evlərlə təmin edilib”.

Qeyd olunub ki, Prezident İlham Əliyevin tapşırığına əsasən şəhid ailələri və müharibə əlillərinin mənzil təminatı proqramı 2021-ci ildə 5 dəfə genişlənib və keçən il 3 min mənzilin bu kateqoriyalardan olan şəxslərə verilməsi proqramı icra olunub.

Xatırladaq ki, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən ötən dövrdə ümumilikdə 12500-dən çox şəhid ailəsi və müharibə əlilinə mənzil və ya fərdi ev verilib. Müharibə əlillərinin avtomobillə təminatı tədbirləri çərçivəsində son 4 ildə də 1450-dək, ümumilikdə ötən dövrdə 7400 müharibə əlili avtomobillə təmin edilib. Bu il müharibə əlillərinə 50, 44 günlük Vətən müharibəsindən sonra ümumilikdə 200, ümumilikdə ötən dövrdə 7400 avtomobil verilib.

Postmüharibə dövründə 450-dən çox şəhid ailəsi və müharibə əlilinə sanatoriya-kurort və müalicə mərkəzlərinə yollayış verilib, 41 nəfər müharibə əlili peşə reabilitasiyasına cəlb olunub, 60 qazi üçün motivasiya düşərgələri təşkil olunub. Həmçinin həssas əhali qruplarından olan şəxslər üçün Sığınacaq və Sosial Reabilitasiya Müəssisəsinin Görmə qabiliyyəti məhdudluğu olan şəxslər üçün sosial reabilitasiya və bərpa şöbəsində qazilər tibbi, pedaqoji, idman, mədəniyyət və incəsənət, psixoloji, eləcə də digər sosial reabilitasiya xidmətlərinə cəlb ediliblər.

**Sabiq millət vəkili, Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının professoru Həvva Məmmədova aparılan işləri ”Şərq”ə şərh edib. O, bildirib ki, şəhid ailələri cəmiyyət üçün həssas təbəqədir:**

”80-ci illərin sonundan bu günə qədər ölkəmizdə qaçqınlara, köçkünlərə, şəhid ailələrinə hökumətin qayğısı və diqqəti hər birimizin gözünün önündədir. 2003-cü ildə Azərbaycan Prezidenti İlham Əliyev hakimiyyətə gəldikdən sonra onun qarşısına qoyduğu ilk məqsədlərdən biri bütün çadır şəhərciklərinin ləğv edilməsi, hər cür infrasturktura malik olan binaların tikilməsi idi. Həqiqətən də bütün bunların hər birini etdi, qəsəbələr salındı, köçkünlər hər cür şəraitlə təmin olunmuş binalarda məskunlaşdı. Çox şükür ki, qaçqın, köçkün kimi statuslar bu insanların adından götürüldü. İndi isə həssas təbəqə torpaqlarımızın azadlığı uğrunda şəhid olan insanlar və onların ailələridir”.

**Azərbaycanın şəhid ailələrinə göstərdiyi qayğının bənzərsiz olduğunu vurğulayan H.Məmmədova söyləyib ki, bu mövzuda bizi heç kimlə müqayisə etmək olmaz:**

”Çox uzağa getməyə ehtiyac yoxdur. Bizdən qat-qat çox itki verən Ermənistanda evlə, işlə, avtomobillə təmin olunan qazi və yaxud şəhid ailəsi xəbərinə rast gəlməmişəm. Amma bizdə uzun zamandır ki, şəhid ailələri pulsuz təhsil alırlar, hər cür imtiyazlardan istifadə edirlər, evlə, maşınla təmin edilirlər. Bu gün proses çox dinamik sürətlə hərəkət edir. Heç bir şəhid ailəsi və qazi bunlardan kənarda qalmır. Dövlət tərəfindən bu cür həssas insanlara hər cür şərait yaradılıb. Onların sağlamlıqları üçün xaricə göndərilməsi, Qarabağ Dirçəliş Fondu, YAŞAT Fondu və başqaları atılan addımlar sırasındadır.

Bu xüsusda Azərbaycan Respublikası Prezidenti İlham Əliyevə və Birinci vitse - prezident Mehriban Əliyevaya təşəkkür etmək istəyirəm. Onlar mütamadi olaraq şəhid ailələrinə baş çəkirlər, yeni mənzillərin açarlarını onlara təqdim edirlər. Bunların hər biri göz önündədir. Azərbaycanda şəhid ailələrinə göstərilən xidmət yüksək səviyyədir. Hər insan bundan ağız dolusu danışmalıdır”.

# Azərbaycan və Ermənistan tarixçilərinin birgə komissiyası yaradılır?

## Boran Əzizli: “Təbii ki, sülh müqaviləsi imzalandıqdan sonra komissiyanın yaradılması daha effektiv təsir göstərər”



**Azərbaycanla Ermənistan arasında sülh müqaviləsinin imzalanması üçün danışıqlar davam etdirilir. Gələcəkdə Azərbaycan və Ermənistan ziyalıları, tarixçiləri arasında görüşlər də keçirilə bilər. Lakin ortada tarixi məsələlərə baxışda mübahisəli məqamlar var.**

Uydurma ”Böyük Ermənistan” ideyasına həqiqət donu geyindirmək məqsədi ilə erməni tarixi saxtalaşdırılır, Azərbaycanın tarixi isə təhrif olunur. Hələ SSRİ məkanında onlar bu siyasətlərindən əl çəkməyiblər. Artıq süni xülyaların reallıqlarla üzləşməsi gərəkir. Görəsən, tarixçilərdən ibarət müştərək komissiya yaradıla bilərmi?

**“Şərq”in sualını cavablandıran tarixçi-alim Boran Əzizlinin fikirlərinə görə, sülh müqaviləsi imzalandığı təqdirdə tarixçilərin birgə komissiyasının yaradılması mümkündür:**

”Təbii ki, sülh müqaviləsi imzalandıqdan sonra komissiyanın yaradılması daha effektiv təsir göstərər. Amma ermənilərin yaradılacaq komissiyada normal fəaliyyət göstərəcəyinə inamım yoxdur. Çünki vaxtilə ermənilər Türkiyəyə qarşı qondarma soyqrımı iddiası irəli sürürdü.

Türkiyə hökuməti dəfələrlə arxivləri açmaqla bağlı müraciət ünvanlamışdı. Qardaş ölkə onları gerçəklər ortaya çıxması üçün çağırırdı. Lakin ermənilər 10 ildən çox müddət keçməsinə rəğmən arxivləri açmadılar. Təkcə Ermənistan deyil, bir sıra Avropa ölkəsi də Türkiyənin irəli sürdüyü təklifə soyuq yanaşdı.

Birgə komissiyanın yaradılması, arxiv materiallarının araşdırmaçılar tərəfindən təhlili gerçəklərin üzə çıxması, yalanın ifşası ilə nəticələnər”.

**Aygün Tahir**

# Türkiyə və Azərbaycanın birgə ordu birləşməsi yaradılmalıdır

## Bu, zərurətdir və iki ölkənin yürütdüyü siyasəti bunu labüd edir



**”Türkiyə-Azərbaycan birgə ordu birləşməsi yaradılması zəruridir”. Bu sözləri ”Şərq”ə politoloq Məhəmməd Əsədullazadə deyib. Ekspert bildirib ki, Azərbaycan və Türkiyə hərbi-texniki, müdafiə və təhlükəsizlik sahəsində əməkdaşlığı maksimum səviyyədə inkişaf etdirməlidir:** ”İki olkənin ordusu mütəmadi təlimlər keçirir. Prezident İlham Əliyev və Türkiyə dövlət başçısı R.T.Ərdoğan iki qardaş türk dövlətini tarixdə olmadığı qədər ən yüksək inkişaf mərhələsinə çatdırıb. Hərbi əməkdaşlıq, birgə təlimlər Azərbaycan Ordusunun NATO standartlarında bir ordu yaratmasını şərtləndirir. Türkiyə və Azərbaycanın birgə ordu yaratması istiqamətində heç bir siyasi əngəl yoxdur. Türkiyə-Azərbaycan birgə ordusunun dislokasiyası Qarabağda mümkündür. Təbii ki, Azərbaycan və Türkiyə birgə ordu birləşməsi Rusiya-Ermənistan ordu birləşməsindən fərqli olaraq daha çevik və müasir döyüş hazırlığına malik olacaq. Bu, zərurətdir və iki ölkənin yürütdüyü siyasəti bunu labüd edir”.

**İsmayıl**

**İsmayıl Qocayev**

**Rusiyanın bəzi rəsmi dairələri, siyasi-ictimai xadimləri Qərbi ittiham edərkən Azərbaycan-Ermənistan arasındakı sülh prosesini, aparılan müzakirələri və ələlxüsus Brüssel görüşünün nəticələrini də ortaya atırlar.**

Daha doğrusu, Kreml hər zamankı kimi öz mövqeyini ”müstəqil” ekspertlərin dili ilə diqqətə çatdırır. Moskva Dövlət Beynəlxalq Münasibətlər İnstitutunun aparıcı elmi işçisi, ekspert və politoloq Sergey Markedonov deyib ki, Avropa İttifaqının Rusiyadan başqa öz motivasiyası və maraqları var. Politoloqun sözlərinə görə, Brüsselin bu cür aktivliyi Kremlin maraqlarına ziddir: ”Aydındır ki, Aİ Rusiyanı gücləndirmək istəmir. Şarl Mişel sanksiyaların müdafiəsində çox fəaldır. Mişel həm də Kiyev ətrafında baş verən hadisələr və Buça qalmaqalı zamanı Moskvanın tənqidçisi kimi çıxış edib. Brüssel üçün postsovet münaqişələrini həll etmək məsələsində səmərəli olduğunu göstərmək vacibdir”. Markedonov bildirib ki, ”Rusiya çox şey edib, lakin indi Avropa İttifaqı Moskva yoxmuş kimi qiymətli kağızların kənarlarını kəsir”.



# Qərb və Moskva Qarabağ mövzusunda anlaşa bilmir

## Rəsmi Bakı qarşıdurmalar zəminində Azərbaycanın milli maraqlarına uyğun öz işini görməlidir

**Rusiyadan Brüssel əleyhinə səslənən fikirləri ”Şərq”ə təhlil edən AĞ Partiya sədri Tural Abbaslı deyib ki, Qarabağda Qərb-Rusiya qarşıdurması davam edir. Partiya rəhbərinin sözlərinə görə, hər iki tərəf ilk növbədə öz maraqlarını ön planda tutur:** ”Rusiya və Qərb Azərbaycanın maraqlarını nəzərə almır. Əslində Brüssel və Moskva üçün Ermənistanın mənafeyi də əhəmiyyət kəsb etmir. Onların dərdi regional strateji mövqeyə sahib olmaqdır. 30 il boş-boşuna fəaliyyət göstərmiş ATƏT-in Minsk qrupunda Qərb ölkələri ilə yanaşı, Rusiya da təmsil olunurdu. Əksər məsələlərdə qarşıdurma həddində olan Qərb və Rusiya Qarabağ münaqişəsində ortaq nöqtədən çıxış edirdilər. Qarabağa görə tərəflərin qarşı-qarşıya gəldiyinə şahidlik etmədik. İki tərəf də Azərbaycanı çəkindirmək üçün birgə bəyanatlar səsləndiriblər. Qərb və Rusiya münaqişəni həll etməmək üçün anlaşma əldə etmişdilər. Amma Azərbaycanın 44 günlük müharibə ilə torpaqlarını işğaldan azad etməsindən sonra tamamilə fərqli mənzərə yarandı. Azərbaycan qalib ölkə oldu. Eyni zamanda Türkiyənin güclənməsi və geopolitik imkanlarının artması bölgədə uzun illər davam etmiş dəngələri dəyişdirdi. Müharibədən əvvəl anlaşmağı bacaran Qərb və Rusiya indi razılığa gələ bilmir. Çünki yenə də öz maraqlarını güdürlər. Təbii ki, Ukrayna fonunda qarşıdurma var. Rəsmi Bakı qarşıdurmalar zəminində Azərbaycanın milli maraqlarına uyğun öz işini görməlidir. Nə Rusiyanın təhdidinə boyun əyməliyik, nə də Qərbin xoş sözlərinə aldanmalıyıq. Strateji müttəfiqimiz olan qardaş Türkiyə ilə birlikdə addım atmalıyıq”.

*T.Abbaslı vurğulayıb ki, Rusiya Qərbin Azərbaycan və Ermənistan arasındakı təşəbbüslərinin qarşısını ala bilməz:* ”Moskva İrəvana təzyiq göstərə, Paşinyan hökumətini ziddiyyətli davranmağa, prosesi pozmağa məcbur edə bilər. Azərbaycan danışıqların nəticə vermədiyini görərsə, mənasız prosesi uzatmayacaq. ”Ya saziş, ya müharibə” devizi ilə çıxış edərək Ermənistanı yekun qərar verməyə vadar etməliyik”.

**Siyasi şərhçi Asif Nərimanlı isə deyib ki, ”ABŞ və Rusiya Qarabağ üzərindən bölgədə ”nüfuz müharibəsi” aparır. Ekspert bildirib ki, Rusiya XİN başçısı Sergey Lavrovun erməni həmkarı Mirzoyanla görüşündən qısa müddət öncə ABŞ-ın Ermənistandakı səfirinin Xarici İşlər Nazirliyinə gəlişi də bundan xəbər verir:** ”Vaşinqton İrəvanın Brüssel razılaşmasına sadiqliyini yoxlamaq istəyir. Mümkündür ki, ABŞ Rusiyanın hansısa həmləsindən son anda xəbər tutub və səfir vasitəsilə İrəvana təcili şəkildə öz mesajını çatdırıb. ”Nüfuz müharibəsi” Qarabağ, ümumilikdə bölgə üzərindəki anlaşmaların icrası ilə bağlı 44 günlük müharibədən öncəki vəziyyətin yaranmasına gətirib çıxara bilər. Bəyanatlar, danışıqlar, diplomatik təmaslar aktiv şəkildə davam etsə də, praktiki addımlara keçid səngiyir. Təcrübə göstərir ki, dalana dirənmiş danışıqları irəlilətmək və praktiki mərhələyə keçidə zəmin yaratmağın yolu hərbdən keçir. Hadisələrin inkişafı buna ehtiyacı aktuallaşdıra bilər”.

# Kremlin Zəngəzurla bağlı fərqli və ziyanlı planı var

## Rusiyanın mövqeyi və davranışları rəsmi Bakını Laçın dəhlizinə nəzarəti öz əlinə almaq məcburiyyətində qoya bilər



**"Rusiyanın Zəngəzur dəhlizi ilə bağlı tamamilə fərqli və ziyanlı maraqları var". Bu barədə "Şərq"ə açıqlamasında politoloq Elçin Xalidbəyli deyib. Analitik bildirib ki, Rusiya Zəngəzur dəhlizinin açılmasında birbaşa maraqlıdır.**

*Ancaq Kreml bu marşrutun yalnız Azərbaycanın qərb hissəsini Naxçıvanla birləşdirən nəqliyyat-kommunikasiya xətti kimi fəaliyyət göstərməsini istəyir:* "Rusiya bu marşrutun dəhliz statusu qazanmasına müqavimət göstərmək niyyətinə düşüb. Zəngəzur dəhlizi ilə bağlı Brüssel anlaşmalarını pozmağa cəhd göstərir. Kremlin əsas məqsədi ondan ibarətdir ki, bu nəqliyyat-kommunikasiya xətti ilə həm Rusiyaya yeni "iqtisadi-ticari pəncərə" qazandırsın, həm də ona tam şəkildə nəzarət edə bilsin. Çünki əgər, Zəngəzur dəhlizi sadəcə, nəqliyyat-kommunikasiya xətti kimi fəaliyyət göstərərsə, yəni Ermənistanın nəzarəti altında olarsa, bu marşrut tamamilə Rusiyanın əlində olacaq. Ermənistanın bütün sərhədlərinə tam nəzarət edən Rusiya qoşunları bu marşrutu da nəzarət altına ala biləcək. Nəticədə bu variant Kremlə həmin marşrutdan istifadə edən ölkələrin - Azərbaycanın, Türkiyənin, eləcə də Avropa və Asiya ölkələrinin yükdaşımalarını nəzarətdə saxlamaq imkanı verəcək. Yəni Rusiya Zəngəzur dəhlizindən həm istifadə etmək, həm də onu öz kontrolunda saxlamaq istəyir. Bunun analoji bir qarşılığının ola biləcəyi də qətiyyən şübhə doğurmur. Ancaq Rusiyanın bu "ikibaşlı oyunlar"ından indiki halda ən çox ermənilər zərbə ala bilərlər. Çünki həm Rusiya, həm də Ermənistan siyasi dairələri tam dəqiqliyi ilə bilirlər ki, rəsmi Bakının istənilən situasiya üçün öz ehtiyat variantı mövcuddur. Azərbaycan Prezidenti İlham Əliyev bu məsələyə münasibət bildirərkən vurğulamışdı ki, Zəngəzur və Laçın dəhlizləri eyni prinsiplər üzrə fəaliyyət göstərməlidir".

**Ekspert vurğulayıb ki, rəsmi Bakı Zəngəzur dəhlizinin olmayacağı təqdirdə, Laçın dəhlizinin də olmayacağının birmənalı mesajını artıq verib:** "Əgər Zəngəzur dəhlizi Ermənistanın (əslində isə Rusiyanın) nəzarətində açılacaqsa, Laçın dəhlizi də dərhal öz statusunu itirəcək. Rəsmi Bakı həmin marşrut üzərində Azərbaycanın nəzarət-buraxılış və gömrük məntəqələrini yerləşdirəcək. Göründüyü kimi, Laçın dəhlizi indiki statusda fəaliyyətini bitirmək üzrədir. Üstəlik, bu baş verərsə, səbəbkarı da məhz Rusiya olacaq. Çünki məhz Rusiyanın mövqeyi və davranışları rəsmi Bakını Laçın dəhlizinə nəzarəti öz əlinə almaq məcburiyyətində qoya bilər. Və bu baxımdan, dolayısı ilə hesab etmək olar ki, Kreml Rusiyanın maraqları naminə Laçın dəhlizinin qapadılmasına cəhd göstərir".

**İsmayıl Qocayev**




# "Şəhid ailələri qırmızı xəttimizdir"

## Professor: "Öhdəliyimiz qalibiyyəti bizə bəxş edən şəhid ailələrinə münasibətdə şərəf borcumuzu yerinə yetirməkdir"

**Şəhidlik uca zirvədir. Uca zirvəyə yüksələn şəhid ailələrinə dəyər vermək isə cəmiyyətin mənəvi borcudur. Vətən yolunda canını fəda etmək insandan ürək, cəsarət, Vətənə sevgi istər. Bu mənada toplum olaraq ən ümdə vəzifəmiz şəhidlərin ruhunu şad etmək, ailələrinə qayğı göstərmək olmalıdır. Təəssüf, bəzi hallarda insanların "qırmızı çizgisi"nə xoşagəlməz münasibət sərgiləndiyini görürük.**

Analoji hadisə Beyləqan rayonunda yaşanıb. Qəhrəmanlı kəndində yaşayan şəhid Emin Məmmədovun anası Səbinə Cəfərovanın ünvanına ağır söyüşlər səsləndirilib. Şəhid anası ilə müəllim arasında mübahisə şəhidin xatirə lövhəsinin ətrafının çirkləndirilməsinə görə yaşanıb. Buna görə, Beyləqan Rayon Məhkəməsinin qərarı ilə 7 gün azadlıqdan məhrum edilib.

Məhkəmə prosesi zamanı Turan Hətəmov psixoloji problemləri olduğunu, həmçinin bu səbəbdən tez-tez psixotrop həblər qəbul etdiyini deyib.

**Baş verən hadisə ilə bağlı "Şərq"ə danışan Sosial Tədqiqatlar Mərkəzinin İdarə Heyətinin üzvü, professor Tahirə Allahyarova bildirib ki, Vətən müharibəsində Zəfər qazanan qalib xalqın heç bir vətəndaşı belə bir xəbər başlığını oxumaq istəməz:**

"Ən arzuolunmaz informasiyadır. Müstəqilliyimizin bərpası ilə birgə "şəhid" ifadəsi Azərbaycan xalqı üçün ən yüksək ideala, statusa çevrildi. Şəhidlərə münasibətdə Prezident İlham Əliyev nümunəvi örnəkdir. Dövlət siyasətinin mərkəzində şəhid ailələri, şəhid anaları, Vətən müharibəsi iştirakçıları dayanır. Sözügedən məktəbdə vətənpərvərlik tərbiyəsinin, şəhid ailələrinə münasibətin günün tələbləri və dövlət siyasətinə uyğun olmayan səviyyədə mövcudluğu aşkardır. Beyləqan və Füzuli rayonu Qarabağ bölgəsinə aiddir. Bilirik ki, Qarabağın 30 ildən artıq işğalda qalmasına görə həmin ərazilərdə yaşayanlar bu mövzulara xüsusi həssas davranmalıdır. Dövlət başçısı deyir: "Mən şəhid ailələri ilə son illər, yəni bütün 18 il ərzində çoxsaylı görüşlər keçirmişəm. Daim çalışmışam ki, onlara həm mənəvi dəstək verim, həm də onların məişət problemlərini həll edim".

Prezidentin təbirincə desəm, müharibədə verdiyimiz ən ağır itki gənclərimiz, şəhidlərimizdir. Onların ağrısı heç vaxt unudulmayacaq".

**Professorun fikirlərinə əsasən, hər bir kollektivin, məktəbin üzərinə düşən öhdəlik şəhid ailələrinə diqqət və qayğı ilə yanaşmaqdır:**

"Diqqəti bütün yeniyetmələrə, şagirdlərə, gənclərə örnək kimi ötürməliyik.

Həmin müəllim psixoloji problemlərini dilə gətirib. Məlumdur ki, sosial psixoloji səbəblərdən qaynaqlanır.

Məsələnin özü də şagirdlərin təhsilini etibar etdiyi müəllimlərin seçimi, auditoriyalarda davranışının diqqətlə sorğulanmadığını deməyə əsas verir. Şəhid ailələri qırmızı xəttimizdir. Cəmiyyətin davranışı da qırmızı xətlə ölçülür. Öhdəliyimiz qalibiyyəti bizə bəxş edən şəhid ailələrinə münasibətdə şərəf borcumuzu yerinə yetirməkdir. Onların xatirəsini əziz tutmalıyıq. Mediada belə müəyyən xəbərlərin sensasiya kimi yayılmasının şahidi oluruq.

Analoji xəbərlərin tirajlanmasında şəhid adının ucalığını nəzərə alaraq təqdim edilməsinin tərəfdarıyam".

**Aygün Tahir**

# Sosial şəbəkələrdə çox diqqətli olmaq lazımdır

## Arzu Nağıyev: "Bu platformada erməni xüsusi xidmət orqanlarının qrupları var"

**Ermənistanla iş birliyi edən 15 yaşlı qız tutulub. Dövət Təhlükəsizliyi Xidmətinin əməkdaşları Ermənistan xüsusi xidmət orqanlarının Azərbaycanda planlaşdırdığı xüsusi əməliyyatı ifşa ediblər. REAL TV-nin "Mir Şahinin vaxtı" verilişində efirə gedən süjetdə bu barədə məlumat verilib.**

Bildirilib ki, Dövlət Təhlükəsizliyi Xidmətinin yüksək peşəkarlıqla ifşa etdiyi erməni xüsusi xidmətlərinin əməliyyatının mərkəzində azyaşlı, şərti adı Fidan kimi göstərilən azərbaycanlı qız durub. O, Ermənistan xüsusi xidmət orqanlarının tərtib etdiyi senariyə uyğun olaraq revanşist qüvvələrin, erməni faşistlərin əlində oyuncağa, hətta Njde Qareginin təbliğatçısına çevrilib.

Fidana radikal, nasist "Haytarakan" qrupunun aparıcı siması Artur Martirosyan və onun tərəfdarları müxtəlif təyinatlı tapşırıqlar verib. Yeniyetmə qızın aldığı ilk tapşırıq Qaregin Njdenin şəklini əlində tutaraq öz təsvirini çəkmək, özü də bunu Bakıda, insanların daha çox olduğu ünvanlarda etmək olub. Onlar bununla da kifayətlənməyiblər. Fidandan hər dəfə daha artıq təxribat xarakterli hərəkətlər etməsini istəyiblər. Sabiq MTN əməkdaşı, siyasi analitik Arzu Nağıyev məsələni **"Şərq"ə şərh edərkən bildirib ki, Ermənistan xüsusi xidmət orqanları ən müqəddəs hisslərə toxunmaqla öz iyrənc əməliyyatlarını həyata keçirmək istiqamətində addımlar atır:** "Hətta azyaşlılardan istifadə etməklə bu istiqamətdə öz təxribat işlərini davam etdirirlər. Müharibə tək səngərlərdə getmir. Xüsusi xidmət orqanları informasiya məkanında da öz müharibəsini davam etdirməkdə israrlıdır. Lakin hər bir işdə olduğu kimi, xüsusi xidmət orqanlarının işində də ləyaqət olmalıdır. Deməli, bunlarda nə ləyaqət, nə hörmət, nə də qarşılıqlı münasibətdə yazılmamış qanunlara hörmət var. Son vaxtlar Ermənistan xüsusi xidmət orqanlarının əməliyyatının ifşa edilməsi istiqamətində atılan addımlar göstərir ki, onlar mənəvi hisslərə toxunaraq özlərinin faşist ideyalarını yaymağa çalışırlar".



*A.Nağıyev qeyd edib ki, 16 yaşı olmayan şəxsi əməkdaşlığa cəlb etmək heç bir çərçivəyə sığmır:*

"Təsəvvür edin ki, onlar Njde Qaregenin təbliğatının müqabilində qızı Rusiyada təhsillə təmin etmək və yaxud maddiyyatını yüksəltmək istiqamətində bu addımı atırlar. Şükürlər olsun ki, Azərbaycan xüsusi xidmət orqanları əməliyyat şəraitinə nəzarət etməklə bu təxribatların qarşısını almaq üçün ciddi addımlar atır. Belə bir təxribatın da qarşısı alındı".

Siyasi analitikin fikrincə, bu kimi halların qarşısını almaq üçün sosial şəbəkələrdə ehiyatlı olmalıyıq: "Əsas məqam ondan ibarətdir ki, onlar bunu sosial şəbəkələr üzərindən həyata keçirir. Sosial şəbəkələrdə çox diqqətli olmaq lazımdır. Bu, əsasən də gənclərə aiddir. Tanımadıqları şəxslərə qarşı diqqətli olmaq lazımdır. Xüsusi xidmət orqanları əsl kimliklərini demir. Onlar istər maddi formada, istər mənəvi, istər şantaj yolu ilə bu işlə məşğul olacaqlar. Sosial şəbəkələrdə erməni xüsusi xidmət orqanlarının öz qrupları var və onlar daim iş başındadır. Revanşist qüvvələrə, öz hökumətlərinə qulluq edirlər. Bu şəxslər nəyin bahasına olursa olsun, Azərbaycanın haqq işinə zərbə vurmağa çalışırlar. Müharibə bitsə də, postmüharibə dövrü davam etməkdədir. Bu kimi halların qarşısını almaq üçün ayıq-sayıq olmaq, vəziyyət ciddiləşərsə, bu haqda xüsusi xidmət və ya hüquq-mühafizə orqanlarına müraciət etmək lazımdır".

**Çimnaz Şahlar**



# NATO Türkiyəni özündən narazı salmaq istəmir

## Finlandiya və İsveç Ankaranın bütün tələblərini yerinə yetirməlidir

**Türkiyənin NATO-ya üzvlük üçün vetonun götürülməsini istəyən İsveç və Finlandiyaya qoşduğu 9 şərtlərdən ən başlıcası PKK və hərbi çevrilişə cəhddən sonra ölkədən qaçmış Fətullahçı terrorçuların Ankaraya təhvil verilməsi idi. Lakin Finlandiya hakimiyyəti PKK və FETÖ üzvlərini Türkiyəyə verməkdən imtina edib.**

Ankaranın tələbindən sonra Finlandiyanın paytaxtı Helsinki və İsveçin paytaxtı Stokholmda terror təşkilatının tərəfdarları Türkiyə əleyhinə nümayişlər keçiriblər. Onlar hökumətdən Türkiyənin tələblərini qəbul etməməyi və NATO-ya üzv olmamağı istəyiblər. Aksiyaçılar İsveçdən Türkiyəyə silah embarqosu tətbiq etməyi tələb ediblər. NATO-nun baş katibi Yens Stoltenberq isə vurğulayıb ki, Finlandiya və İsveçin bloka üzvlüyü ilə bağlı Ankaranın narahatlıqları qanunidir. Baş katib qeyd edib ki, Türkiyə qədər heç bir müttəfiqləri terror hücumuna məruz qalmayıb: "Buna görə də Ankaranın təhlükəsizliklə bağlı narahatlıqları ciddi qəbul edilməlidir".

**Politoloq Qabil Hüseynli "Şərq"ə bildirib ki, NATO üzvləri Türkiyənin terror məsələsində həssas olduğunun fərqindədir. Ekspertin sözlərinə görə, hərbi blok ən güclü üzvünü - Türkiyəni narazı salmaq fikrindən uzaqdır:** "Demək olar ki, hərbi alyansın əksər üzvləri öz müttəfiqləri saydıqları Türkiyənin tələblərinin İsveç və Finlandiya tərəfindən nəzərə alınmasını istəyirlər. Hər iki ölkənin hökumətlərinə açıq və ya gizli məsləhət görürlər ki, əgər təşkilata üzv olmaq niyyətləri ciddidirsə, o zaman Ankaranın tələblərini qəbul etsinlər. Çünki NATO-ya üzv olmaq terrorçu PKK və FETÖ üzvlərinə sığınacaq verməkdən, onları təmin etməkdən daha faydalı və perspektivlidir. Əlbəttə, qardaş Türkiyənin şərtləri tamamilə qanunidir. İsveç və Finlandiya terrorçuları açıq şəkildə himayə edirlər, onlara vətəndaşlıq verirlər. Hətta bir müddət əvvəl İsveçdə PKK-çılar üçün "Rozak" adlı televiziya yaratmışdılar. Sonradan ABŞ və başqa Avropa ölkələri vasitəsi ilə həmin televiziyanı bağlatmaq mümkün oldu. Finlandiya isə qanunsuz terrorçu birləşmələrə silah-sursat yardımı göstərir. Lakin Türkiyəyə qanuni yolla silah satmaqdan imtina edir. Ankaranın etibarsız ölkələrlə eyni hərbi-siyasi blokda təmsil olunması qəbuledilməzdir. Türkiyə haqlı olaraq İsveç və Finlandiyanın öz üzərlərinə öhdəlik və məsuliyyət götürməsini tələb edir. İndiki halda bu dövlətlər Türkiyə ilə müttəfiq ola bilməzlər".

**İsmayıl Qocayev**

# Ukraynada müharibənin sonu görünmür

## Rusiya işğal etdiyi ərazilərdə rus pasportları paylayır

**Ukraynada Rusiya pasportları paylanır. Bu barədə mayın 25-də Rusiya Prezidenti Vladimir Putin fərman imzalayıb. Fərmana əsasən, Melitopol, Xerson və Zaporojya şəhərlərində yaşayan ukraynalıların Rusiya vətəndaşlığı tanınır. Rusiya gününün qeyd olunduğu vaxtlarda Ukraynanın işğal olunmuş şəhərlərində pasportlar verilməyə başlanıb.**




Zaporojye vilayətinin rusiyalı hərbi rəhbəri Vladimir Roqov Melitopol şəhərində keçirilən mərasimlərdə pasportlar sahiblərinə təhvil verilərkən deyib ki, Rusiyanın tapşırığı ilə Xerson vilayətinin hərbi rəhbəri Vladimir Saldonun xalqdan Rusiya vətəndaşlığı tələbi güclüdür. V.Saldo həmçinin indiyədək Xerson vilayətinin 23 sakininə Rusiya vətəndaşlığı verildiyini diqqətə çatdırıb.

**Rusiyanın addımlarını "Şərq"ə şərh edən siyasi şərhçi Turab Rzayev bildirib ki, belə davranışlar Rusiyanın planlarını, niyyətini daha açıq ortaya qoyur:**

"Rəsmi Moskva ilk başlarda müharibə niyyətində olmadığını, hücum etmək istəmədiyini bildirirdi. Hətta dövlət rəhbərləri açıqlamalarında da Rusiyanın Ukraynaya hücum etməyəcəyini vurğuladılar. Baxmayaraq ki, qərb mediası, qərb kəşfiyyatı, hətta ABŞ Prezidenti Cozef Bayden belə Rusiyanın Ukraynanı işğal edəcəyini demişdi. Daha sonra şimal qonşumuzun Ukraynaya qarşı açıq müharibəyə başladı.

Onlar müharibə deyil, sadəcə, antiterror əməliyyatı apardıqlarını və Ukrayna xalqını həmin rejimdən xilas etdiklərini söylədilər.

Amma son hadisələr, xüsusilə də Xerson, Mariupol və Melitopolda əhaliyə vətəndaşlıq paylanması Rusiyanın bu əraziləri nəinki müvəqqəti öz nəzarətinə götürmək, həm də ilhaq etmək istəyini deməyə əsas verir. Birbaşa Krım kimi işğal etmək məramındadır. Çünki onlara pasport verilməsindən, həmin əraziyə Rusiyanın təqaüd tətbiq etməsindən, Kremldən maaş alandan sonra sözügedən şəhərlər necə Ukraynaya qaytarıla bilər?! Bu həm də Kremlin sülh prosesində səmimi olmadığını göstərir. Rusiya rəsmi olaraq bildirib ki, Xerson və digər vilayətlər referendum keçirərək, istəyərlərsə, Kremlə birləşəcəklər. İndi isə əhaliyə pasport paylayıb.

Aydın məsələdir ki, Ukrayna ilə bir razılıq əldə olunsa da, şimal qonşumuz Krımı qaytarmadığı kimi öz rus vətəndaşlığı daşıyan şəxsləri, yaxud da referendumla ona birləşmiş əraziləri də verməyəcək. Belə olan halda necə sülh ola bilər?!

Barışıq üçün Ukrayna rəhbərliyi gərək çox alçaldıcı, təhqiramiz bir razılaşmaya getsin ki, tutulan bütün ərazilər Rusiyada qalsın.

Bu da rəsmi Kiyev daxilində yeni qalmaqallara səbəb olar. Yaxud da Kreml torpaqların ən azından bir qismini qaytarmalıdır ki, Ukrayna cəmiyyətində sabitləşmə olsun.

Amma rəsmi Moskvanın hazırkı addımları onu göstərir ki, Rusiya torpaqları geri vermək niyyətində deyil. Belə olan halda müharibə hələ uzun müddət davam edəcək".

**Sücayət Mehti**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

**Gənc nəslin milli mənlik şüurunun inkişaf etdirilməsi və vətənpərvərlik hisslərinin tərbiyəsi**



# "Son zəng"

## Belə tədbirlər qalib ölkə və qalib xalqa uyğun şəkildə təşkil olunmalıdır

**Bu gün məktəblərdə "Son zəng" çalınacaq və minlərlə gənc həyatın yeni - özünütəsdiq mərhələsinə qədəm qoyacaq. Necə davranacaq Azərbaycan gəncliyi, özünü necə təsdiq edəcək, şəhid və qazilərimizin qəhrəmanlıq estafetini qəbul edib, əmanət olunan Vətən torpaqlarını qoruya biləcəkmi, ölkəmizin adını ucaldacaqmı, müasir dünya gəncliyi ilə birləşərək sağlam gələcək qurucusuna çevrilə biləcəkmi? Bu sualların cavabı illər öncə - orta məktəbdə təhisl aldığı illərdə həm ailə, həm də məktəb tərəfindən yeniyetmələrin düzgün təlim-tərbiyəsi vasitəsilə hazırlanıbsa, onlar müstəqil həyatda büdrəməyəcək, ölkəyə layiqli vətəndaş olacaqlar.**

Bunun üçün yeniyetmə və gənclərlə işləyən nazirliklər, dövlət orqanları, təşkilatlar da üzərlərinə düşən vəzifəni yerinə yetirməlidir. Təsadüfi deyil ki, Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin müzəffər Ali Baş Komandanı İlham Əliyev Emin Əmrullayevin təhsil naziri təyin edilməsiylə bağlı video-formatda qəbulu, həmçinin Fərid Qayıbovu gənclər və idman naziri təyin edərkən çıxışı zamanı gənclərin milli-vətənpərvərlıik ruhunda tərbiyəsinin önəmli olduğunu xüsusi vurğulamışdı: "Bütövlükdə gənclərimizin tərbiyə edilməsi prosesi diqqət mərkəzində olmalıdır. Gənclərimiz ənənəvi dəyərlər əsasında tərbiyə almalıdırlar. Həm məktəblərdə, həm ailələrdə ənənəvi dəyərlər bizim əsas sütunumuzdur. Azərbaycan dəyərləri, milli dəyərlərimiz bizim üçün əsas prinsipdir və gənc nəsil də bu ruhda tərbiyə almalıdır, milli ruhda, vətənpərvərlik ruhunda tərbiyə almalıdır. Gənc nəsil mənfi xarici təsirdən uzaq olmalıdır və buna nail olmaq üçün tərbiyə işləri aparılmalıdır. Gənclər savadlı, bilikli olmalıdırlar, eyni zamanda milli mədəniyyətimizə yaxın olmalıdırlar. Bizim milli dəyərlərimizi dərk etməlidirlər, onları yaşatmalıdırlar və bu istiqamətdə çox ciddi iş aparılmalıdır. Çünki indiki dünyada qloballaşma prosesləri gedir və bəzi hallarda xarici dairələr gəncləri özləri üçün əsas hədəf seçirlər. Yəni gəncləri aldatmaq, yoldan çıxarmaq üçün səylər göstərilir. Biz bunu görürük və əlbəttə, bunun qarşısı alınmalıdır". Cənab Prezident çıxışı zamanı gənclərin tərbiyəsində vətənpərvərlik hisslərinin ön planda olmasının zəruriliyini qeyd etmişdi və 44 günlük Vətən müharibəsini örnək göstərmişdi: "Əlbəttə ki, İkinci Qarabağ müharibəsindəki parlaq tarixi Qələbəmiz gənclərin tərbiyə işində əsas rol oynamalıdır. 44 günlük Vətən müharibəsinin hər günü bizim üçün əzizdir, doğmadır. Vətən uğrunda öz canlarından keçmiş şəhidlərimizin əziz xatirəsi bizim üçün doğmadır, bizim üçün müqəddəsdir və gənclər bu nümunələr əsasında tərbiyə almalıdırlar. Bizim gənclər artıq müzəffər xalqın nümayəndələri kimi böyüyəcəklər. Bunun çox böyük mənəvi və psixoloji mənası var. ...Bundan sonra müzəffər xalq kimi, qalib ölkə kimi, qürurlu insanlar kimi əbədi yaşayacağıq". Prezident qeyd etmişdi ki, bu şanlı tarixi yaşatmaq və qorumaq, gəncləri bunun əsasında tərbiyə etmək vacib məsələdir və bu işdə hər kəs üzərinə düşən vəzifəni yerinə yetirməlidir.

"Son zəng" tədbirləri də bu kontekstdə təşkil edilməlidir. 2021-2022-ci tədris ilinin məzunlarını ötən illərin məzunlarından fərqləndirən əsas cəhət onların qalib ölkənin gəncləri olmasıdır. Deməli, "Son zəng" tədbirləri də qalib ölkə və qalib xalqa uyğun şəkildə təşkil olunmalıdır. Qeyd edək ki, təhsil nazirinin əmrinə əsasən, "Son zəng" tədbiri hər bir ümumi təhsil müəssisəsinin həyətyanı sahəsində, həyətyanı sahəsi olmayan ümumi təhsil müəssisələrinin isə idman və ya akt zallarında təşkil olunacaq. "Son zəng" tədbirində valideyn komitələri, valideyn-müəllim assosiasiyaları və ictimaiyyətin nümayəndələri iştirak edə bilər. "Son zəng" müddətində şagirdlərin təhlükəsizliyinin təmin olunması istiqamətində zəruri tədbirlər görüləcək. Bununla bağlı Daxili İşlər Nazirliyi Baş Dövlət Yol Polisi İdarəsi valideynlərə müraciət edib. BDYPİ-nin müraciətində qeyd olunur ki, bu gündən etibarən doğma məktəbdən ayrılan məzunlarımız həyatlarının yeni mərhələsinə qədəm qoyacaq, planlaşdırdıqları hədəflərə doğru addımlayacaq, təhsilini ali məktəbdə davam etdirəcək, hansısa ixtisasa yiyələnəcək və ya Vətənin keşiyində durmaq üçün hərbi xidmətə yollanacaqlar. Lakin harada olmalarından asılı olmayaraq onlar yol hərəkəti iştirakçısı olaraq qalacaqlar. Son illərin təcrübəsi göstərir ki, bəzən şagirdlər "Son zəng" günü valideynlərinə və ya qohumlarına məxsus nəqliyyat vasitələrindən istifadə edərək əyləncə təşkil etmək məqsədilə sükan arxasına əyləşirlər. Avtomobilin onu idarə etmək hüququ olmayan yeniyetməyə könüllü təqdim edilməsindən və ya sahibinin icazəsi olmadan ələ keçirilməsindən asılı olmayaraq, belə hallara yol verilməsi isə olduqca təhlükəli əməldir. Odur ki, ilk növbədə avtomobilini sürücülük hüququ olmayan övladına etibar edən valideynlərə səslənirik. Xatırladılır ki, belə hallar ciddi qayda pozuntusudur və inzibati məsuliyyət yaradır. Çox təəssüf ki, bəzən bu cür səhlənkarlığa yol verən valideynlərə rast gəlinir, nəticədə həm ayrı-ayrı ailələr, həm də cəmiyyətimiz üçün ağır faciələr yaşanır.

"Son zəng"in gənclərin yaddaşında təkcə əyləncələrlə deyil, həm də vətənpərvərlik hisslərinin tərənnümü kimi qalması üçün hansı işlər görülməlidir?

**Bərdə rayonu, 6 saylı orta məktəbin tərbiyə işləri üzrə direktor müavini, Bərdə Yeni Azərbaycan Partiyasının Bərdə rayon təşkilatı Gənclər Birliyinin sədri Elşən Ramizoğlu "Şərq"ə açıqlamasında xüsusilə 44 günlük Vətən müharibəsindəki şanlı və tarixi qələbəmizdən sonra orta məktəblərdə keçirilən "Son zəng" tədbirlərinin də mahiyyətinin dəyişdiyini dedi:**

- 44 günlük Vətən müharibəsi ümumilikdə xalqımıza elə bir qürur yaşadıb ki, bu, hər sahədə hiss olunur, xüsusilə də orta məktəblərdə, yeniyetmə və gənclər arasında. Tədris olunan dərslərin məzmunu da müsbətə doğru dəyişib, vətənpərvərlik hissləri ön plana çıxıb. Bundan əvvəl də orta məktəblərdə pedaqoji heyət yeniyetmələrin milli ruhda, vətənpərvərlik ruhunda tərbiyəsinə xüsusi önəm verirdi, çünki qarşıda bizi böyük bir sınaq - torpaqlarımızın işğaldan azad olunmasının gözlədiyini hamı bilirdi. Qarabağ müharibəsi, erməni işğalı, şəhidlərimizin qəhrəmanlığı tədris və təlim-tərbiyə prosesində ana xətti təşkil edirdi. İndi isə artıq qalib xalq kimi qələbəmizdən, şücaətli ordumuzdan danışırıq və bu, gənclərin vətənpərvərlik ruhunda tərbiyəsində əsas rol oynayır. Hesab edirəm ki, "Son zəng" tədbirlərinin məzmunu və forması da artıq dəyişməlidir. "Son zəng" günü gənclərin yaddaşında yalnız əyləncələrlə deyil, həm də vətənpərvərlik ruhunun təbliği kimi qalmalıdır. Bu gün şəhid məzarları, Şəhidlər Xiyabanı ziyarət edilməlidir, "Son zəng" tədbirlərinə şəhid ailələri, şəhid anaları, şəhid övladları mütləq dəvət edilməlidir. Elə məktəblərimiz var ki, hansısa şəhidin adını daşıyır, elə məktəblər var, orada şəhid balaları təhsil alır. "Son zəng", eləcə də digər ölkə miqyaslı tədbirlərdə şəhid ailələri öndə olmalı, onlara xüsusi diqqət ayrılmalıdır. "Son zəng" tədbirləri də milli-mənlik şüurunun, vətənpərvərlik hisslərinin tərbiyəsi ruhunda keçirilməlidir. Müstəqil həyata addımlayan gənclərimiz onlardan hansı gözləntilərimiz olduğunu bilməlidirlər.

**Məlahət Rzayeva**

**Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə çap olunub**



# Yayda hər kəs istirahətə can atır

## Ancaq bütöv bir sinfin şagirdlərini naşı avtobus sürücüsünə etibar etmək olmaz

**Bakı-Şamaxı yolunda 56 nəfərin xəsarət alması ilə nəticələnən ağır yol-nəqliyyat hadisəsi səyahət və turlar problemini gündəmə gətirib. Məktəblilərin iştirakı ilə səyahət və ekskursiyaların təşkili yenilik deyil. Bunlar həmişə, bütün dövrlərdə olub.**

Və təqdir də edilib. Şagirdlər sosiallaşmalıdır, istirahətləri, tətilləri mənalı, tədrisə dəstək olacaq səviyyədə təşkil edilməlidir. Məlum məsələdir ki, səyahətlər, ekskursiyalar uşaqların biliklərinin daha da möhkəmlənməsinə, əlavə biliklər əldə etməsi üçün lazımdır. Uşaqlar səfər etdikləri yerdə tarixi öyrənir, ölkəsinin coğrafiyasını tanıyır, yurduna bələd olur. Üstəlik, şagirdlərin birgə səyahəti onlar arasında ünsiyyətin, mehribanlığın formalaşmasına kömək edir. Əlbəttə ki, gözlənilməz hallara da hazır olmaq lazımdır. Tanınmayan əraziyə səyahət zamanı hər cür hadisə baş verə bilər. Səyahətlər planlaşdırılarkən də iqlim şəraitindən tutmuş, gediləcək məkanın relyefinədək hər bir detal araşdırılmalıdır. Bəzən səyahətlər məktəb yaşlı uşaqlara uyğun gəlmir. Böyüklər səyahətləri öz istəklərinə uyğun təşkil edirlər. Səyahətlər müxtəlif formalarda olur, valideynlə, valideynsiz. Səyahətdə valideynlər də varsa, təbii ki, uşaqların təhlükəsizliyinə ciddi yanaşmalıdırlar, onları nəzarətsiz qoymamalıdırlar. Lakin valideyn övladını müəllimə etibar edirsə, müəllimin də vəzifəsi uşaqları qorumaqdır. Qəzalardan kimsə sığortalanmayıb. Amma qəzadan sonra ortaya çıxan problemlər səyahət və turların təşkilində boşluqlar olduğunu göstərir. Təhsil naziri Emin Əmrullayev məlum qəza hadisəsinə münasibətində bu məsələlərə toxunub: "İki tədbiri bir-birindən ayırd etməliyik. Biri dövlət qurumu tərəfindən keçirilən, biri də valideyn qruplarının təşkil etdikləri tədbirlərdir. Məsələn, biz, Şuşaya səfər təşkil etmişdik. Təxminən 300-ə yaxın şagird getmişdi. Burada biz aidiyyəti qurumlarla əməkdaşlıq etmişdik. Hansısa valideynlər öz övladları ilə harasa getmək istəyirsə, bu halda tövsiyə edərdim ki, ehtiyatlı olsunlar". Nazir bildirib ki, dövlət qurumlarının təşkil etdiyi tədbirlər zamanı müvafiq tədbirlər görülür. Səhiyyə qurumları ilə, polislə daim əməkdaşlıq edilir: "Təşəkkür edirəm ki, bu istiqamətdə bizə dəstək olurlar. Amma ayrı-ayrı valideyn qruplarının belə tədbirlər təşkil etməsinə nəzarət bir o qədər asan məsələ deyil. Çünki Azərbaycan azad ölkədir və istənilən valideyn qrupu öz övladları ilə harasa gedə bilərlər. Bu zaman qəzaların baş verməsi nə qədər xoşagəlməz olsa da, heç kim bundan sığortalanmayıb. Məktəb rəhbərliyi tərəfindən kütləvi tədbirlər təşkil olunarsa, mütləq qaydada dövlət strukturlarından, Təhsil Nazirliyindən dəstək almaq imkanları var". Təhsil nazirinin sözlərinə görə, hazırda məsələ Bakı Şəhəri üzrə Təhsil İdarəsinin nəzarətindədir: "Biz istənilən halda, həmişə uşaqların yanındayıq və istəyirik ki, hansısa mürəkkəbləşmə olmasın. Qəza nəticəsində xəsarət alan uşaqlar var. Onların müalicəsi davam etdirilir. Şükür ki, daha ciddi fəsadlar olmayıb. Gələcəkdə inanırıq ki, bu məsələni təşkil edənlər diqqətli olacaqlar. İstəməzdik ki, belə hallar olsun, amma Azərbaycanda yol qəzaları olur".

**Bakı Şəhəri üzrə Təhsil İdarəsi də rayonlara səfərlə bağlı valideynlərə çağırış edib. Çağırışda qeyd olunur ki, dərsdənkənar vaxtlarda və tətil müddətində bu kimi səfərlərə təşəbbüs göstərərkən müvafiq normalara cavab verən qurumlarla qanunauyğun şəkildə tərəfdaşlıq etmək zəruridir.**

"İyunun 12-də Qəbələdən Bakıya hərəkət edən sərnişin avtobusu qəzaya düşüb. Nəticədə avtobusda olan Bakı şəhəri 279 nömrəli məktəbin şagirdləri, onların sinif rəhbəri və valideynlər müxtəlif dərəcəli bədən xəsarətləri alıblar. Xəsarət alanlara ilkin tibbi yardım göstərilib və onlar Şamaxı, Qobustan və Bakıdakı müxtəlif tibb müəssisələrinə yerləşdiriliblər. Səhər saatlarına olan məlumata görə, Şamaxı və Qobustandakı xəstəxanalardan 1 nəfər ağır və 2 nəfər orta ağır xəsarət alanlar paytaxtdakı müxtəlif tibb müəssisələrinə köçürülüb. İnsan tələfatının olmadığı bildirilir. Yüngül xəsarət alanlar müvafiq tibbi yardım və müayinələrdən sonra ambulator müalicə üçün evə buraxılıb. Bakı Şəhəri üzrə Təhsil İdarəsi müvafiq qurumlarla birgə xəsarət alanların vəziyyətini nəzarətdə saxlayır. Xatırladaq ki, qəzaya uğrayan avtobusun sərnişinləri, ümumilikdə 36 şagird (32 nəfər IV sinif və onların ailə üzvləri olan 4 nəfər digər sinif şagirdi), 4-cü sinfin rəhbəri olan müəllim və 19 nəfər valideyndən ibarət olub. Məktəb rəhbərliyinin verdiyi məlumata əsasən, şagirdlərin səfəri valideynlərin təşəbbüsü ilə bir günlük gəzinti-istirahət məqsədilə təşkil olunub".

"Kimdir müqəssir" isə həmişəki kimi cavabsız qalan sualdır. Biri sürücünü, başqası müəllim və valideynləri, digəri daxili turlar təşkil edənləri qınayır. Ortada olan faktlar isə günahkarların üzə çıxarılması üçün yetərlidir.

**Sosioloq Lalə Mehralı "Şərq"ə açıqlamasında qeyd etdi ki, məsələ uşaqlardırsa, valideyn də, müəllim də, səyahət təklif edən şirkətlər və sükan etibar edilən sürücülər xüsusilə ehtiyatlı olmalıdır:**

- İndiki vəziyyətdə məsuliyyət sürücünün üzərindədir. Sürücünün vəsiqəsi yoxlanmalı, vəsiqəni necə əldə edib, araşdırılmalıdır. Avtobus sürməyə yetərlidirmi vəsiqəsinin kateqoriyası, özünün yaşı, sürücülük stajı? Əgər bu məsələlərdə boşluqlar, qanun pozuntusu varsa, tur şirkəti cəzalandırılmalıdır. Şirkət məsuliyyətə cəlb edilməlidir ki, sürücünü hansı əsaslarla işə qəbul edib, bir avtobus uşağın məsuliyyəti necə ona etibar edilib? Qanun-qaydanı heç kim vecinə almır. Hamı məsuliyyətinin fərqində olmalıdır. Bir tur üçün 600 manat almağı bilirlər, təhlükəsizliyin təminatını isə bilmirlər. Məlumatlara görə, sürücü "başqa işə tələsirəm" deyib, sürət həddini keçib, dönmə qaydasına əməl etməyib. Əgər o dəmirlər olmasaydı bir avtobus adam uçuruma yuvarlanacaqdı. Səyahətlər üçün daha etibarlı turizm şirkətləri, daha etibarlı, kateqoriyalı sürücülər seçilməlidir. Təəssüf ki, bu, həmişə mümkün olmur. Hamı səyahətə can atır. Şəxsi tanışlıqla avtobus kirayələyir, pul toplayırlar. Tur təşkil edənlərin sayı-hesabı yoxdur. Yığma avtobuslarla səfərə çıxırlar. Kimsə nə təhlükəsizliyə zəmanət verir, nə mənalı istirahətə. Hazırkı istirahətlər selfi çəkdirib paylaşmaqdan o yana keçmir. Səhər saat 06:00-da yola çıxan avtobus gecə 12-də geri qayıdır. Uzaq məsafələrə səyahətlər gecələməklə olsa yaxşıdır. Sürücü də yorulmaz, gecə qaranlıqda avtobus idarə etməz. Tələsməz. Bunun üçün də istirahət məkanlarında ucuz, əlçatan qiymətlər olmalıdır ki, valideynlər övladları ilə normal istirahət edə bilsin.

**Məlahət Rzayeva**

# Boşanma işlərinə ixtisaslaşmış hakimlər baxmalıdır

## Belə olarsa cütlüklərin ortaq məxrəcə gəlməsinə nail olmaq mümkündür



**"Məhkəmələrdə ailə məsələlərinin araşdırılması ilə bağlı xüsusi hakimlər olmalıdır". Bu təklifi Milli Məclisin Ailə, qadın və uşaq məsələləri komitəsinin sədri Hicran Hüseynova edib.**

Onun sözlərinə görə, məhkəmələrdə bir çox hallarda düzgün qərarlar qəbul edilmir: "Əslində mənfi fikirlər səsləndirmək istəmirəm. Lakin ailə məsələləri sona qədər araşdırılmır. Bu səbəbdən xüsusi mütəxəssislərə ehtiyac var. Ona görə məhz ailə məsələlərinə baxan xüsusi hakimlər olmalıdır".

**Millət vəkilinin təklifini müsbət dəyərləndirən hüquqşünas Fərhad Mehdiyev də "Şərq"ə açıqlamasında ailə məhkəmələrində xüsusi hakimlərin olmasına ehtiyac olduğunu bildirib.** Hüquqşünas həmçinin "hətta bir çox ölkələrdəki kimi Ailə Məhkəmələri modelini də yaratmaq olar" deyə əlavə edib. Onun sözlərinə görə, ayrıca fəaliyyət göstərən Ailə Məhkəmələri ailə-məişət məsələləri ilə bağlı bütün problemlər orada həll olunur:

"Bizdə son illər boşanmaların sayı artıb deyə mediasiyalar fəaliyyət göstərir. Hesab edirəm ki, paralel olaraq boşanma işlərində psixoloq dəstəyi də alınmalıdır.

Düzdür, artıq boşanma işi məhkəməyə qədər gedibsə, burada hökm vermək bir o qədər də əhəmiyyətli deyil. Amma elə cütlüklər var ki, psixi və mənəvi baxımdan onların boşanması daha yaxşıdır. Məhkəmədə tərəflərdən biri boşanmaya razı olmadıqda hakim düşünmələri üçün 3 ay vaxt təyin edir, proses uzanır. Bu müddətdə isə zorakılıq faktları artır. Düşünürəm zorakılıq motivi olan boşanmalarda qarşı tərəf boşanmağa razılaşmasa belə hakimin 3 ay gözləmə müddəti verməsinə ehtiyac yoxdur. Bu kimi səbəblərdən ailə məhkəmələrində iştirak edən hakimlərin bu sahə üzrə ixtisaslaşmış olması məqsədəuyğundur.

Bəzən də elə cütlüklərin işi məhkəməyə qədər gedib çıxır ki, baxırsan ki, ortada boşanma üçün ciddi bir səbəb yoxdur. Amma tərəflər razıdır deyə hakim ayrılmalarına qərar verir. İxtisaslı hakimlər belə işlərdə daha məlumatlı olduqlarından cütlüklərin ortaq məxrəcə gəlməsinə nail ola bilər. Ən azı onları psixoloqa yönləndirməklə prosesi uzada bilər".

**F.Mehdiyev təklif edir ki, mediasiya prosesində tərəflər boşanmaya razılaşırlarsa, onların işi məhkəməyə getmədən mediasiya sazişi bağlayaraq nikahlarının pozulması mümkün olmalıdır. Yəni məhkəməsiz ZAKS-ları ləğv olunmalıdır.**

Onun sözlərinə görə, Azərbaycanda ixtisaslaşmış İnzibati Məhkəmə və Kommersiya Məhkəməsi var: "Rayon məhkəmələrində isə ixtisaslı hakimlər yoxdur. Mülki işlərə baxan hakim eyni zamanda cinayət işinə, əmək və ailə məsələləri ilə bağlı proseslərə baxır. Ancaq xüsusi ağır cinayət işləri olduqda proses Ağır Cinayətlər Məhkəməsinə göndərilir".

**Şəymən**

# Tələsmək olmaz

## Azərbaycan-Türkiyə birgə universitetinin yaradılması ciddi əmək tələb edir

**Azərbaycan-Türkiyə birgə universitetinin yaradılması ilə bağlı danışıqlar davam edir. Layihənin gecikməsi ictimaiyyətdə müəyyən suallar doğursa da, rəsmilər əsaslı şəkildə bir məsafə qət etdiklərini bəyan edirlər. Qeyd edək ki, Türkiyə-Azərbaycan arasında olan dost və qardaş münasibətləri hər sahədə olduğu kimi, təhsil sahəsinə də sirayət edir. Türkiyə və Azərbaycan arasında Şuşa Bəyannaməsində də bu yaxınlaşmaya zəmin yaradacaq maddələr var. Bu universitet Azərbaycan ali təhsili, elmi, gəncləri, insan kapitalının inkişafı üçün ciddi addım olacaq. Bu, yalnız təhsil və tədris deyil, elm, tədqiqat sahəsindəki inkişaf üçün də vacib addımdır.**



***"Ona görə də universitetdən əvvəl orta məktəb və ya kollec səviyyəsində ortaq bir layihə reallaşdırıb onun nəticəsinə uyğun ali təhsil ocağı yaratmaq olar"***

Birgə universitet layihəsi həm Azərbaycan, həm də Türkiyə təhsili üçün ilk layihə deyil. Hazırda ölkəmizdə Fransa və Koreya ilə birgə universitetlər fəaliyyət göstərir, Türkiyə isə bu təcrübəni Qazaxıstan və digər ölkələrlə həyata keçirib. Təsis olunacaq birgə universitetdə hər iki ölkənin elmi potensialından istifadə etməklə, bu iki ölkənin vətəndaşlarına eyni güzəştlərlə xidmət göstərilməsi nəzərdə tutulur. Universitetin ilk illərdə məhdud ixtisaslarla fəaliyyət göstərməsi planlaşdırılır.

Hazırda müzakirə mərhələsində olan Azərbaycan-Türkiyə Universiteti haqda qərar dəqiqləşəcəyi təqdirdə universitetə qəbul da elə növbəti tədris ili üçün nəzərdə tutulub. Bu isə universitetin ilk ilində Bakıda hansısa universitetin nəzdində açılması ehtimalını artırır. Lakin universitetin növbəti illərdə öz binasında və daha çox ixtisasla fəaliyyət göstərməsi planlaşdırılır. Universitetin məhz ali təhsil pilləsində dünya reytinqlərində yüksək nəticələr göstərmiş Türkiyə ilə birgə qurulması bura daha çox yüksək ballı tələbələrin maraq göstərəcəyi ehtimalını artırır.

Ekspertlərin fikrincə, birgə universitetlərin yaradılması təhsil sahəsində əməkdaşlığın daha da gücləndirilməsinə, təcrübə mübadiləsinin aparılmasına, sağlam rəqabət mühitinin yaradılmasına, ölkə gənclərinin elə Azərbaycanda təhsil almasına mühüm töhfə verə bilər.

**"Study İn Turkey Azerbaijan" şirkətinin rəhbəri, xaricdə təhsil üzrə ekspert Fuad Hacıyev isə "Şərq"ə açıqlamasında deyib ki, birgə universitet məsələsi uzun müddətdir gündəmdə olsa da, yaxın gələcəkdə bu istiqamətdə real addımların atılması gözlənilən deyil:** "Bilirsiniz ki, daha əvvəl də Şuşada türk dünyasının ortaq orta məktəbinin yaradılması məsələsi də müzakirə mövzusu idi. Amma daha sonra məsələ gündəmdən düşdü. Türkiyə Cümhuriyyətinin Ali Təhsil Şurasının sədri Erol Özvar Bakıda səfərdə olanda birgə universitet məsələsi əsas müzakirə mövsu oldu. İdeya baxımından birgə universitet layihəsi arzuolunandır. Amma bu universitetin yaradılması ilə cavabı birmənalı olmayan suallar çoxdur. Bu universitet harada yaradılacaq? Paytaxt Bakıda? Halbuki biz uzun illərdir paytaxtda yerləşən ali məktəblərimizin digər şəhərlərə köçürülməsini məqsədəuyğun hesab edirik. Belə bir zamanda Bakıda yeni bir universitet modelinin tətbiq edilməsi arzuolunan deyil".

**Ekspertin fikrincə, birgə universitet mərkəzdən kənarda fəaliyyət göstərməlidir:** "Bəzi informasiyalarda Azərbaycan-Türkiyə birgə universitetinin paytaxt Bakıda açılacağı, daha sonra filiallarının Gəncə və Şuşada fəaliyyətə başlayacağı deyilir.

Məncə, bu layihə mütləq işğaldan azad olunan rayonlarımızdan birində reallaşdırılmalıdır. Birgə universitet ölkəmizdə ehtiyac olan sahə üzrə olmalıdır. Bildiyimə görə, mühəndislik ixtisası üzrə formalaşdırılması planlaşdırılıb. Türkiyənin hansı universitetlə birgə universitet açılacağından asılı olaraq bu istiqamət üzrə ölkənin ali təhsil müəssisələri düzgün kadr hazırlığı həyata keçirə bilmir. Əsas məsələ işin necə qurulacağı, rəhbərliyin və idarəçiliyin hansı tərzdə həyata keçiriləcəyi ilə bağlıdır.

**Ekspertin fikrincə, Azərbaycan-Türkiyə birgə universitetinin yaradılması ciddi əmək tələb edir:** "Ona görə də universitetdən əvvəl orta məktəb və ya kollec səviyyəsində ortaq bir layihə reallaşdırıb onun nəticəsinə uyğun ali təhsil ocağı yaratmaq olar".

Şəymən



# Ali məktəblərin bufetlərində qiymətlər ucuz olmalıdır

## Sosial layihələr hazırlanmalı, müəyyən sponsorlar tapılmalıdır

**Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin bufetində divara yapışdırılmış elan diqqət çəkib. Elanda "bufetə kənardan yemək gətirmək qadağandır!" xəbərdarlığı yazılıb. Foto sosial şəbəkə istifadəçiləri arasında geniş müzakirə edilib.**

Rəylərdə sosial şəbəkə istifadəçiləri universitet daxilində fəaliyyət göstərən bufetlərdə satılan məhsulların qiymətlərinin marketlərlə müqayisədə çox baha olduğunu bildiriblər. Bəzi tələbələr isə digər universitetlərdə də belə qadağaların olduğunu qeyd ediblər.

Məsələ ilə bağlı "Şərq"ə danışan iqtisadçı-ekspert Natiq Cəfərli qeyd edib ki, həmin bufetlərin hansı müqavilə şərtləri ilə işləməsinə baxmaq lazımdır:

"Universitet rəhbərliyi bufeti hansısa şirkətə və yaxud da özəl şəxsə icarəyə veribsə və icarə sənədində kənardan müdaxiləyə imkan yoxdursa, bu, bir növ hüquqi status yaradır. Yox əgər universitet şəxsi mülki kimi fəaliyyət göstərirsə, bu zaman başqa hüquqi prosedurlar işə düşməlidir.

Ümumilikdə, beynəlxalq təcrübə göstərir ki, universitet bufetləri daha ucuz olur. Avropa universitetlərində tələbələr üçün müəyyən yardım kampaniyaları aparılır və onlar tələbə yeməkxanalarında aşağı qiymətə normal şəkildə qidalanır. Universitet rəhbərliyi bufetləri qazanc yeri olaraq icarəyə verməməlidir.

Sosial layihələr hazırlanmalı, müəyyən sponsorlar tapılmalıdır. Bu tərz təşviq proqramları ilə qiymətlərin aşağı salınmasını dizayn etmək olar".

Nihat Müzəffər



# “3 qardaşım xərçəngdən rəhmətə gedib"

## Nailə İslamzadə pandemiya səbəbindən anasının son anlarında yanında ola bilməməsindən təsirlənib

**“Çətin idi. Anamın son nəfəsinə çata bilmədim. Bu da pandemiyaya görə oldu. Yollar bağlı idi. Bir gün sonra səhər mənə zəng vurdular ki, ananın vəziyyəti ağırdır, artıq gəlməlisən. Mən gedənə qədər yolda (red. Bakıdan Balakənə) anam rəhmətə getdi. Dedilər ki, ananınızın nəşini götürmək lazımdır. Qış idi, hava tez qaralır, soyuq idi, yağış yağırdı, yol uzaq idi”.**

*Bunu Əməkdar artist Nailə İslamzadə "O üz" proqramında qonaq olarkən söyləyib.*

*O, pandemiya səbəbindən anasının son anlarında yanında ola bilməməsindən təsirləndiyini vurğulayıb:*

"Postda dayanan şəxsə dedim ki, tez getməliyəm, anamın dəfninə çatmalıyam. Dedi ki, sizin adınız portalda yoxdur. Belə hadisələr oldu, anamın son nəfəsinə çata bilmədim. Bu, mənə çox pis təsir etdi. Bəlkə də anamın mənə deyiləsi sözü vardı.

O ki, qaldı anamın yasına, qardaşlarım da rəhmətə getmişdi, ona görə bütün işlər mənim üzərimdə idi. Anam başı bağlı, namaz qılan qadın idi. Yaşlı idi. Deyirdi ki, ölsəm, yasım urvatlı olsun. Hər şeyin yerli-yerində olmasını xoşlayırdı. Vacib deyildi ki, yeməyi gəlib hamı evdə yesin. Yeməklər bişdi, paylandı. Hər şeyi necə lazımdır, öz qaydasında etdim ki, anamın ruhu şad olsun. Mənə elə gəlir ki, anamın ruhu bütün bunları gördü, hiss etdi".

**N.İslamzadə üç qardaşını xərçəngdən itirdiyini deyib:**

"Bizim böyük ailəmiz olub. Dörd qardaşın bir bacısı olmuşam. Hamıdan kiçik evdə mən idim. Uşaqlığım çox gözəl keçib. Qardaşlarımın hamısı yaxşı oxuyurdular. Böyük qardaşım 11 yaş məndən böyükdür. Üç qardaşımın üçü də rəhmətə gedib. Böyük qardaşım isə Moskada professordur. Elmi konfranslara gedir, oradan mənə paltarlar gətirirdi. Əlinin içində baxırdılar mənə. Ailəmizin imkanları geniş olmayıb. Atam müəllim olub, anam isə beş uşaq böyüdüb. Hamısını oxudub, təhsil verib. Amma heç zaman məhrumiyyətlər yaşamamışam evdə.

Əvvələr Balakənə gedəndə hamı həyətə yığışardı, şənliklər olardı, kabab çəkilir, masalar qurulardı. İndi isə bunların heç biri yoxdur. 3 qardaşım xərçəngdən rəhmətə gedib. O qədər boşluq var ki, Balakənə gedib valideyinlərimin və qardaşlarımın qəbrini ziyarət edirəm, dualar oxuyub, gül qoyuram. Balakən məni çox çəkir. Amma ora gedəndə qəmgin oluram. O vaxtları xatırlayıram, amma artıq yoxdur".

# Milli komandadan heç nə gözləməyin

## Aqil Abbas: “Bunu səmimi və futbolu bilən bir adam kimi deyirəm”

**Ötən gün Azərbaycanın minifutbol üzrə milli komandasının Avropa çempionu olması ölkədə nəinki idman sevərləri, hətta idmanla maraqlanmayan şəxsləri belə sevindirib. Futbolumuzun zəif dinamika ilə inkişaf etdiyi belə bir zamanda mini futbol komandamızın qalibiyyət xəbəri futbol həvəskarlarında bu idman növünün gələcəyinə ümid yaradıb. Eyni zamanda "kollektiv oyunları bacarmırıq" kimi mifi sual altına alıb.**




***"De Byazi getsin bir az futbola baxsın, Gürcüstanın futbolunu izləsin..."***

*"Azvision.az" saytının baş redaktoru Vüsal Məmmədov da bu xəbərə reaksiya verib:*

"Minifutbolda Avropa çempionu olmağımızdan çıxan ən vacib nəticə odur ki, biz komanda oyunlarını oynaya bilirik. Skeptiklərin ən vacib arqumenti darmadağın edildi", - öz feysbuk hesabında paylaşım edib.

"525-ci qəzet"in baş redaktoru Rəşad Məcid də bu mövzudan yan keçməyib. O, öz paylaşımında idman jurnalistlərinə səslənib:

"Quru" yerdən çempion çıxmaz. Minifutboldakı qələbənin səbəbi, kökü barədə idman jurnalistləri araşdırma aparmalıdırlar. Çempionluğa gətirən yollar, futzal və minifutbola gizlin, təvazökar maraq, həvəskarlar arasında minifutbola alovlu münasibət - bunlar təhlilə gələn, araşdırılması vacib məsələlərdir. Yeri gəlmişkən, deyir həvəskarlar öz aralarında bu futbolu "dır-dır" adlandırırlar. Hətta bəziləri minifutbolun - küçə, məhlə futbolunun Bakıda yaranmasını israr edir, populyarlığını dilə gətirirlər".

**Millət vəkili, "Ədalət" qəzetinin təsisçisi Aqil Abbas isə "Şərq"ə açıqlamasında bildirib ki, belə bir qalibiyyəti futbolumuzdan gözləməməliyik:** "Azərbaycan milli futbol komandasının baş məşqçisi Cianni De Byazidir. Ona görə də milli komandadan heç nə gözləməyin. Bunu səmimi və futbolu bilən bir adam kimi deyirəm.

Futbol təkcə oyunçunun oynaması deyil, həmçinin məşqçinin sistemidir.

De Byazi isə "əşşək otaran"dır, belə də yazarsınız. Bizim futbolçular gözəl oyun oynayırlar, özlərini öldürürlər. Bütün canlarını qoyurlar. De Byazi getsin bir az futbola baxsın, Gürcüstanın futbolunu izləsin...".

*Qeyd edək ki, 11 iyunda Azərbaycanın mini-futbol üzrə millisi tarixində ilk dəfə qitə çempionu olub.*

Çimnaz Şahlar

# Xatirə İslam ana olmaq üçün müalicə alır



**Müğənni Xatirə İslam bədən şəkilləndirmə iddialarına aydınlıq gətirib.**

"Şərq" xəbər verir ki, "ŞouRum" kameralarına tuş gələn ifaçı plastik əməliyyat etmədiyini açıqlayıb:

"Tamamilə başqa əməliyyatdır. İkinci dəfə ana olsam, plastik əməliyyat edərəm. Ana olmaq üçün müalicə alıram, inşallah olsun".

**Elan**

Hacıyev Vəlyəddin Musayəddin oğluna məxsus Abşeron rayonu, Masazır qəsəbəsi, "Bağçalı Evlər" MTK, yaşayış kompleksdə bina 5, mənzil 31-ə verilmiş müqavilə və maliyyə arayışı itdiyi üçün etibarsız sayılır.

# Şagirdlərin avtoxuliqanlıq etməsi xoşagəlməz hadisədir

## Bədbəxt hadisələrin yaşanmaması üçün yeni üsullar tapmalıyıq



**Bakı Şəhər Dövlət Yol Polisi (DYP) İdarəsi orta məktəblərdə keçiriləcək "Son zəng" tədbirləri ilə bağlı valideynlərə xəbərdarlıq edib. İdarənin baş inspektoru, polis mayoru Araz Əsgərli "Report"un sorğusuna cavab olaraq bildirib ki, Yol polisi olaraq qeyd etmək istəyirik ki, ötən illərdə də müxtəlif formalarda xoşagəlməz hadisələr baş verib.**

Belə ki, həmin gün valideynlər övladlarına avtomobillərini həvalə edirlər, bu da sonda bədbəxt hadisənin yaranmasına səbəb olur. Bir daha valideynlərə xəbərdarlıq edirik ki, avtomobilləri idarəetmə hüququ olmayan şəxslərə verməsinlər. Bu həm inzibati xətadır, həm də ictimai asayiş pozulur. DYP rəsmisi qeyd edib ki, "Son zəng" tədbirləri ilə əlaqədər olaraq bütün təhsil müəssisələrinin ətrafında gücləndirilmiş qaydada xidmət fəaliyyət davam etdiriləcək. Bu məsələnin valideyin səhlənkarlığından, yoxsa müəllimlərin diqqətsizliyindən ortaya çıxdığı sualı sosial mediada dolanır.

**Polisin gördüyü təhlükəsizlik tədbirlərinin vacibliyini qeyd edən sosioloq-alim Əhməd Qəşəmoğlu "Şərq"ə açıqlamasında bildirib ki, görülən tədbirlər şagirdlər arasında gərginliyin artmasına şərait yaratmamalıdır:**

"Şagirdlərin avtoxuliqanlıq etmələri, aqressiv olmalarının əsas səbəbi cəmiyyətdə və ailələrdə yaranan problemlərdən irəli gəlir. Lakin burada biz nə ailəni, nə müəllimləri, nə də digərlərini yüz faiz günahlandıra bilmərik. Bu kimi tətbirlərdə bədbəxt hadisələrin yaşanmaması üçün yeni üsullar tapmalıyıq. Əlbəttə, polis nəzarəti və qaydaların olması yaxşıdır. Amma bəzən polis işçiləri sərt davranır və bu qaydaların həyata keçməsi mexanizmi uğursuz olur. Əlimizdən tədbirin qəzasız keçməsini diləməkdən və şagirdləri ehtiyatlı olmağa səsləməkdən başqa bir şey gəlmir".

Nihat Müzəffər

Təsisçi və baş redaktor: Akif Aşırlı
Baş redaktorun ı müavini: Yusif Nəzərli
Redaktor: Ayyət Əhməd

Reportyorlar qrupu:
Məlahət Rzayeva, Şəymən Bayramova, İsmayıl Qocayev, Yeganə Bayramova, Kənan Eynuroğlu, Aynurə Pənahqızı, Günəş Mərd, Aygün Tahir

Texniki heyət:
Rüfət Dadaşov, İmamcan Əliyev

Qəzet “Şərq”in kompyuter mərkəzində yığılır, səhifələnir və “Azərbaycan” nəşriyyatında çap olunur

Qəzet Mətbuat və İnformasiya Nazirliyində qeydə alınıb.
Lisenziya: 535
www.sherg.az
e-mail: sherq-1996@mail.ru

Ünvan: Mətbuat prospekti, “Azərbaycan” nəşriyyatı.
Telefon: 447-32-41
538-44-50, internet 538-44-15,
İndeks: AZ1073

Hesab nömrəsi: “Kapitalbank”ın ASC 1 saylı Nəsimi filialı 9900003611
SWIFT BIK AII-BAZ2X h/h
AZ17AIIB38070019441100466111
Kod 200112 M/H
AZ37NABZ01350100000000001944
VÖEN 1300414651 İndeks: 0330 Tirajı: 2550 Sifariş: 1703



## Sarayda köç həyəcanı...

### Yeni məlumat Kral ailəsində dəyişikliklər olacağına işarədir

**Kraliça II Yelizavetanın taxta çıxmasının 70 illiyinin qeyd edildiyi "Platin yubiley" təntənələri bir sıra gözlənilməz hadisələrə səhnə olub.**

Təntənələrə kral ailəsindən və sülalədəki hüquqlarından imtina edərək ABŞ-a köçən şahzadə Harri və Megan Marklın yubiley tədbirinə qatılması yeni müzakirələrə yol açıb. Məlumdur ki, şahzadə Harri Kral ailəsindən imtina edərək həyat yoldaşı ilə birlikdə ABŞ-da müstəqil həyat sürməyi seçdikdən sonra Şahzadə Uilyamla həyat yoldaşı Ket Middlton kraliçanın əziz-xələflərinə çevrilib. Bu, yubiley tədbirində gözdən yayınmayıb. Şahzadə Harri və həyat yoldaşı ilə kimsə yaxınlıq edib, ünsiyyət saxlamayıb, Uilyam və həyat yoldaşı isə ön cərgədə əyləşərək varies olacaqlarını davranışları ilə sanki elan ediblər. Yeni xəbər isə bundan ibarətdir ki, şahzadə Uilyamla Ket Middlton Vindsor sarayına köçməyə hazırlaşır. Hətta övladlarının məktəbini də dəyişdiriblər. Ailə övladlarının rahatlığını üstün tutaraq Londonun yorucu atmosferindən uzaqlaşmağı qərara alıb. Bu məlumat Kral ailəsində dəyişikliklərin olacağına və Kraliça II Yelizavetanın varis seçimində kimin üzərində dayanacağına işarədir.

**Məlahət**

## Güllə keçirməz, oda və zəlzələyə davamlıdır

### Nigeriyada plastik butulkalardan ev tikilir



**Nigeriya mənzil çatışmazlığı problemini ən aşağı qiymətə həll etmək üçün plastik butulkalardan evlərin tikintisi üçün tikinti materialı kimi istifadə etməyə başlayıb.**

Azərtac xarici saytlara istinadla xəbər verir ki, bu evlər güllə keçirməz, oda və zəlzələyə davamlıdır və içəridə rahat temperatur saxlayır. Nigeriyada pisləşən mənzil böhranı təxminən 16 milyon mənzil tələb edir. Ənənəvi tikinti əksər sakinlər üçün çox baha olduğundan plastik şüşələrdən ev tikmək ideyası böyük vüsət alıb. Binalar üçmərtəbəli tikilə bilər, lakin qumla doldurulmuş butulkaların ağırlığına görə ikimərtəbə ilə kifayətlənirlər. Maraqlıdır ki, iki otaqlı ev tikmək üçün 14 min butulka lazımdır.





# Qatil nənə

### Nəvələriylə birlikdə 12 nəfəri öldürüb

**Nanni Doss adını tarixə qatil nənə, həm də "pıqqıldayaraq gülən", "totuş qatil nənə" kimi yazdırıb. Totuş, güləyən nənənin qanlı hekayəsi 1905-ci ildən başlayır. Nanni ABŞ-ın Alabama ştatında Jim və Luisa Hazellərin ailəsində dünyaya gəlib. Ailədə 5 uşaq olublar. Nanni uşaqlıqdan atasının təzyiqləri altında olub, məktəbə getmək əvəzinə onu evdə, həyətdə, ailə təsərrüfatında işlədiblər. 7 yaşında ailəsiylə birlikdə qatarla səyahət zamanı qəza keçirib və başından zərbə alıb.**

Məhz bu zərbə onun həyatını bir daha dəyişilməyəcək şəkildə dəyişib. O gündən sonra qızda davamlı baş ağrıları başlayıb. Depressiyaya düşüb, qaradinməz olub. Boş vaxtlarını anasının oxuduğu romantik jurnalları vərəqləməklə keçirib, ailə həyatı qurmaq xəyalları ilə yaşayıb. 16 yaşında evlənib. Həyat yoldaşı Çarlinin anasına bağlı olması isə Nanninin uşaqlıq travmasını təzələyib və buna görə aralarında anlaşılmazlıq yaranıb, evdə söz-söhbət düşüb. Buna rəğmən Nanni və Çarlinin 4 övladı dünyaya gəlib. Uşaqlara qulluq etmək, ev işləri Nanninin əsəblərini yenə gərib. 4 övladından 2-sinin anidən, heç bir əsaslı səbəb olmadan vəfat etməsi Çarlidə Nanni barədə şübhələrə səbəb olub. Çarli övladlarının ölümündə Nannini günahkar bilib, nəticədə onlar ayrılıblar. 1 il sonra Nanni Franklin Harrelsonla ailə qurub. Franklini əyyaş, söyüşcül, zorakı olsa da, Nanni 16 il onunla birlikdə yaşayıb. Bu illər ərzində Nanninin böyük qızı Melvinanın 2 övladı vəfat edib. Nəvələrinə Nanni baxırmış. Məlum olub ki, bu "gülümsər nənə" birin-




ci nəvəsini saçlara vurulan sancağı uşağın başına batıraraq öldürüb. İkinci nəvəsi isə müəmmalı şəkildə boğularaq ölmüşdü. Növbəti qurban isə həyat yoldaşı Franklin olub. Nanni həyat yoldaşını zəhərləyərək öldürüb. Sonra isə Franklinin həyat sığrotasından əldə etdiyi pulla torpaq sahəsi və ev alıb. Nanninin üçüncü evliliyi də qətllə sonuclanlıb. Arlie Lanning adlı şəxslə evlənən Nanni bu ərinin də yeməyinə zəhər qataraq onu öldürüb. Nanninin qayınanası da müəmmalı şəkildə vəfat edib. Sonra Nanninin öz anası, doğma bacısı da əsaslı bir səbəb olmadan vəfat edib. Nanninin sonuncu qurbanı Samuel Dross olub. Qadın onu da zəhərləyibmiş. Lakin zəhərli qəhvə nəhayət Nanninin ifşasına səbəb olub. Polis qəhvə fincanını incələdikdə qadının



cinayəti üzə çıxıb. İstintaqda isə Nanni yalnız həyat yoldaşlarını qətlə yetirdiyini etiraf edib. Etirafları zamanı Nanni hər dəfə pıqqıldayaraq gülürmüş. Buna görə də ona "pıqqıldayan qatil nənə" adı verildi. Ömürlük azadlıqdan məhrum edilən Nanni 1965-ci ildə 59 yaşında, qan xərçəngindən ölüb.

**Məlahət Rzayeva**



## 2 yeniyetmə itkin düşüb

### Xilasedicilər onları 25 metrlik su quyusunda axtarırlar

**İyunun 9-da Dənizlinin Acıpayam rayonunda yaşayan İsmayıl Yalçın (19) və Həsən Akköse (17) evlərinə qayıtmadığına görə ailələri onların itkin düşdüyü barədə polisə məlumat veriblər.**

Qruplar dərhal Yalçın və Akkösenin ən çox getdiyi Serinhisar mahalının Aydoğdu yaylasında axtarışa başlayıb. Nəhayyət 2 gəncə məxsus cib telefonlarını meşədə parçalanmış, evdən çıxarkən mindikləri avtomobili isə tərk edilmiş vəziyyətdə tapıblar.

Axtarışlar zamanı mobil telefonların aşkarlandığı ərazinin yaxınlığında da qan izləri aşkar edilib.

Ərazidə araşdırma aparan qruplar son dəfə bir yerdə olduqları təsbit edilən Mustafa A.-nı şübhəli kimi saxlayıb.

Mustafa A.-nın (37) polis bölməsində ilk ifadəsində 2 gənclə mübahisə etdiyi, tüfənglə atəş açdığı, daha sonra Yalçın və Akkösenin qaçdığı öyrənilib.

Polis qrupları, Mustafa A ilə birlikdə hadisədə suçlu olduğu iddia edilən 8 şübhəlini də nəzarətə alıb.

Şübhəlilərdən biri Yalçın və Akkösenin Serinhisarın Dəvəlikuyusu məhəlləsində ola biləcəyini deyib. Qruplar burada işlərini gücləndirib. Düzənlikdəki su quyusunun qısa müddət əvvəl torpaq və qaya parçaları ilə dolduğu müəyyən edilib.

Dərinliyi 25 metr olan quyunun boşaldılmasına qərar verilib və yanğınsöndürənlərdən kömək istənilib. Vəziyyətlə bağlı Yalçın və Akkösenin qohumları quyunun yerləşdiyi əraziyə gələrək işləri göz yaşları ilə izləyiblər.

Digər tərəfdən, şübhəlilərdən Mustafa A.-nın itkin düşmüş gənclərdən Həsən Akkösenin uzaq qohumu olduğu və onun bir müddət əvvəl 10 nəfəri qətlə yetirdiyi üçün həbsxanadan çıxdığı öyrənilib.

**Turan**

## Yaponiyada hava limanında robot polislər işə salınıb




**Yaponiyanın paytaxtı Tokioda yerləşən Narita hava limanında robot polislər işə salınıb.**

**Trend-in məlumatına görə, süni intellektlə təchiz olunmuş robotların xarici görünüşü 1,2 metr hündürlüyündə nəqliyyat vasitəsinə bənzəyir.**

***Qeyd olunur ki, həmin robotlar kameraların qeydə aldığı görüntüləri dərhal təhlil etmək imkanına malikdir.***

***Robot polislər hava limanında nizam-intizama nəzarət etməklə yanaşı, itmiş və ya şübhəli əşyaların axtarışlarını aparacaq. Daha əvvəl buna bənzər robot polislər Tokioda keçirilmiş Yay Olumpiya oyunları zamanı Tokio hava limanında istifadə olunsa da, həmin robotlar süni intellektlə təchiz olunmamışdı.***

## Daha bir serial eşqi gerçək oldu



**Türkiyəli aktrisa Yeşim Ceren Bozoğlu ilə həmkarı Halil İbrahim Kurum eşq yaşamağa başlayıb.**

**Axşam.az xəbər verir ki, sonuncu dəfə "Hayaller ve hayatlar" serialında rol alan aktyorların dostluğu sevgiyə çevrilib. Cütlük ötən gecə Galataportda təşkil olunan əyləncəyə əl-ələ qatılıb.**

**İkili daha əvvəl də sosial media hesablarında paylaşdıqları səmimi fotoları ilə diqqət çəkmişdi.**

***Qeyd edək ki, Yeşim sözügedən ekran işində "Melike", Halil isə "Yiğit" obrazını canlandırır.***

## Tərəf müqabili oldular



**Türkiyəli aktrisa Pelin Akil Altanın yeni layihəsi bəlli olub.**

**Axşam.az xəbər verir ki, aktrisa "Ben bu cihana sığmazsam" serialında rol alacaq. Onun ekran işindəki tərəf müqabili isə Oktay Kaynarca olacaq. Layihədə Pelin "Firuze", Oktay "Cezayir" obrazına həyat verəcək.**

***Qeyd edək ki, Oktay sonuncu dəfə "EDHO", Pelin isə "Barbaroslar: Akdenizin kılıcı" seriallarında baş rolları ifa ediblər.***

## Özbəkistanda sürücülük vəsiqəsini robot verir



**Özbəkistanda sürücülük vəsiqəsi imtahanları üçün tam avtomatlaşdırılmış iki sınaq mərkəzi fəaliyyət göstərir və beləliklə, sürücülərin yol hərəkəti qaydalarını bilməsi və təcrübəsi insan müdaxiləsi olmadan qiymətləndirilir.**

Azərtac Özbəkistan mediasına istinadla xəbər verir ki, imtahanın nəzəri hissəsi kompüter vasitəsi ilə, praktiki hissəsi isə yenə də insanın müdaxilə etmədiyi sistemlə həyata keçirilir. 100 faiz avtomatlaşdırılmış avtodrom sükan arxasında əyləşən sürücünün bütün qayda pozuntularını qeydə alır.

Özbəkistanda sürücülük vəsiqəsinin verilməsi istiqamətdə eksperimentlər fevral ayında başlayıb. Fevralın 4-dən iyunun 9-dək Daşkənd şəhərindəki test mərkəzində sürücülük məktəblərinin 10 min 92 məzunu imtahan verib. Onlardan yalnız 3 min 266 nəfəri avtomobil idarə etmək hüququ qazanıb.

## Təzyiqi yüksək olanlar üçün ideal dieta

### Bunlar damarların tonusu üçün vacibdir



**Hipertoniya xəstələri gün ərzində çox maye içməli, kaliy, maqniy, B qrup vitaminlə zəngin qidalar yeməlidir.**

Bakupost.az xəbər verir ki, həkim endokrinoloq Nataliya Lazurenko diabet xəstələri üçün dietaların fərdi hazırlanmalı olduğunu deyib.

"Hər xəstənin yaşı, çəkisi, yanaşı xəstəlikləri fərqlidir. Ola bilər, təzyiqlə yanaşı şəkəri olsun. Amma bu xəstələrin ümumi tonusunu yaxşılaşdırmaq üçün qidalanma var. Məsələn, onlar hər gün bir banan yeməlidir. Məsləhətdir ki, çox yetişmiş, içərisində qaralma olan banan yox, bir qədər bərk, açıq sarı banan seçilsin. Belə bananda olan nişasta çəkiyə təsir etməyəcək.

Eləcə də təzyiq xəstələri şirniyyat əvəzinə quru meyvələr, tərəvəzlər, qoz, badam yeməlidir. Bunlar damarların tonusu üçün vacibdir.

Duzlu və hisə verilmiş qidalar endorfinlərin sintezini artırır. Lakin duz təzyiqi qaldırır, bədəndə maye toplayır. Təzyiq xəstələrində limfatik proses yavaşıyır, əgər bədəndə maye toplansa damarların tonusu pozulacaq, təzyiq nəzarətə alına bilməyəcək. Bu xəstələr 1 litrdən çox təmiz su içməli, qara çay və kofe əvəzinə nanə, çobanyastığı dəmləməsi içə bilər.Təzyiq xəstələri un məmulatları yeməməlidir".

## Şevval Samın gözəllik sirri ortaya çıxıb

### Aktrisa idmanla məşğul olmadığını etiraf edib



**Məşhur türkiyəli aktrisa-müğənni Şevval Samın gözəllik sirri ortaya çıxıb.**

Axşam.az xəbər verir ki, aktrisa idmanla məşğul olmadığını etiraf edib:

"20-30 yaşlarım çətin idi. 40-dan sonra özümlə barışdım və necə bir insan olduğumu anladım. O sarsıntılı illərə qayıtmaq istəmirəm. O illərdə yorğun idim, amma mənim enerjim heç vaxt itmədi. Qocalmamağın düsturu budur.

Heç bir idmanla məşğul ola bilmirəm, amma sağlam qidalanıram. Qablaşdırılmış qidalardan uzaq dururam və əsasən tərəvəz yeyirəm. 22 ildir ət və toyuq yemirəm".

**Şevval maşınlara qarşı xüsusi marağının olduğunu bildirib:**

"Gənclik illərində oğlanlardan daha çox avtomobillərə maraq göstərirdim. Sənayedə işləmək istərdim. Maşınlara xüsusi marağım var idi. Hələ də təmir işləri aparır, təkərləri dəyişirəm".

*Qeyd edək ki, Şevval hazırda "Yasak elma" serialında Ender obrazını canlandırır.*

## Conni Deppin bu əşyası 250 minə hərraca çıxarıldı



**Hollivud ulduzu Conni Depp keçmiş həyat yoldaşı, amerikalı aktrisa Ember Hördlə qalmaqallı məhkəmə prosesini xeyrinə sonlandırdıqdan sonra ona aid olan hər şey maraq oyadıb.**

Axşam.az xəbər verir ki, bu dəfə aktyorun "Cry-Baby" filmində idarə etdiyi motosiklet hərraca çıxarılıb. "Kruse GWS" tərəfindən auksiona çıxarılan nəqliyyat vasitəsinin başlanğıc satış qiyməti 250 min dollar təşkil edir.

Hərrac zamanı ilkin məbləği ən azı 25 min dollar artırmaq mümkün olacaq.

*Qeyd edək ki, 1955-ci ilin Harley-Davidson brendinə məxsus olan motosiklet işlək vəziyyətdə deyil.*